**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BÖYÜK BRİTANİYANIN ŞƏRQ SİYASƏTİNDƏ AZƏRBAYCANIN YERİ VƏ ROLU (XVIII-XIX əsrin əvvəlləri)

İxtisaslar: 5503.02 – “Vətən tarixi”
5507.01– “Beynəlxalq münasibətlər tarixi”

Elm sahəsi: Tarix

İddiaçı: **Nigar Rövşən qızı Gözəlova**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Beynəlxalq münasibətlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru
**Nailə Məmmədəli qızı Vəlixanlı**

tarix elmləri doktoru, professor
**İsmayıl Məhərrəm oğlu Musa**

tarix elmləri doktoru, professor
**Zabil Həsrət oğlu Bayramov**

tarix elmləri doktoru, dosent
**Emin Arif oğlu Şıxəliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonlarında Cənubi Qafqazın siyasi xəritəsində müstəqil dövlətlərin meydana gəlməsi onların tarixi keçmişinin obyektiv şəkildə tədqiqinə böyük ehtiyac yaratmışdır. Zəngin tarixi irsə malik olan Azərbaycan da bu prosesdən kənarda qalmamışdır. Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Vətən tarixşünaslığı sovet tarix elminin konyunktur yanaşma üsullarından və stereotiplərindən xilas oldu. Azərbaycan tarixçiləri ölkənin tarixi keçmişinin bir çox səhifəsini yenidən nəzərdən keçirməyə başladılar. Eyni zamanda əvvəllər öyrənilməmiş problemlər də tarixçilərin tədqiqat obyektinə çevrildi. Bu da öz növbəsində XIX əsrin əvvəllərində iri dövlətlərin qarşıdurması nəticəsində torpaqları bölünmüş, xalqı isə ikiyə "parçalanmış" Azərbaycanın vahid geosiyasi məkan kimi tarixi keçmişinin daha dolğun və obyektiv mənzərəsini formalaşdırmağa imkan verdi. Bu gün Vətən tarixşünaslığında Azərbaycan tarixi artıq vahid tarixi torpaqları çərçivəsində qəbul edilməkdədir. Bu kontekstdə XVIII–XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri və rolu mövzusu indiyədək xüsusi tədqiqat obyekti olmamışdır.

Avropadan Yaxın Şərqə gedən beynəlxalq yolların üzərində yerləşən və geosiyasi mərkəzlərdən biri olan Azərbaycan yüzillərdir ki, dünyanın ən mühüm hadisələrində böyük rol oynamaqdadır. Avropa ölkələri ilə münasibətlər isə hələ orta əsrlərdən etibarən intensiv şəkil almışdır. Azərbaycan ərazisində Qafqaz, Xəzəryanı vilayətlər, Əfqanıstan, Şimali Hindistan və Mərkəzi Asiyanın bir hissəsini tərkibinə qatmış Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və Əfşar imperiyalarının yaranması bu prosesin bariz nümunəsidir. Orta əsrlərdə müsəlman şərqinin iqtisadi baxımdan inkişaf etmiş mərkəzləri olan Ağqoyunlu və Səfəvi dövlətləri Avropa ölkələri ilə qarşılıqlı mənfəətə dayanan əlaqələr qurmağa çalışırdılar. Geniş Avrasiya məkanında hegemonluğa can atan güclər isə Azərbaycana xüsusi maraq göstərirdilər. Xüsusilə XVIII–XIX əsrin əvvəllərində Yaxın Şərqdə müstəmləkələr uğrunda mübarizənin başladığı kapitalizm dövründə maraq daha da artmışdır. Azərbaycanda cərəyan

edən hadisələrə qonşu dövlətlərlə yanaşı, Böyük Britaniya da fəal şəkildə təsir göstərirdi. Bu baxımdan bəhs olunan dövrdə Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri və rolunun müəyyən edilməsi Vətən tarixşünaslığı üçün mühüm aktuallıq kəsb edir.

Tədqiqat mövzusunun aktuallığı, bir tərəfdən müasir dövrdə Avropa dövlətlərinin, o cümlədən Böyük Britaniyanın Cənubi Qafqazda həyata keçirdiyi siyasət ilə XVIII–XIX əsrin əvvəllərində yürüdülən siyasət arasındakı qarşılıqlı əlaqə, digər tərəfdən isə Rusiya-Qacar müharibələri ərəfəsində və dövründə (1804-1813; 1826-1828) Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri və rolunun indiyədək Vətən və xarici tarixşünaslıqda xüsusi tədqiqat obyekti olmaması ilə əlaqədardır.

XVIII–XIX əsrin əvvəlləri böyük dövlətlərin Cənubi Qafqazı ələ keçirmək uğrunda apardıqları mübarizənin obyektinə çevrilmiş Azərbaycanın tarixində olduqca mürəkkəb, eyni zamanda siyasi hadisələrlə zəngin bir dövrdür. Gərgin mübarizənin özülündə ilk növbədə regionun zəngin maddi ehtiyatları və önəmli strateji mövqeyi dayanırdı. Bu baxımdan, son dərəcə mürəkkəb və bir çox hallarda ziddiyyətli tarixi prosesin mahiyyətinin və spesifikliyinin kompleks şəkildə və çoxtərəfli öyrənilməsi həm ümumilikdə Cənubi Qafqazın tarixi üçün, həm də ayrılıqda Azərbaycan tarixi üçün böyük elmi əhəmiyyətə malik vəzifə olaraq qarşımıza çıxır.

Tədqiq edilən dövrün əhəmiyyəti Böyük Britaniyanın Səfəvilər, Əfşarlar, Qacarlar dövlətləri ilə, habelə regionda öz təsirini getdikcə daha da gücləndirən Rusiya imperiyası ilə siyasi və iqtisadi münasibətlərinin inkişafında Azərbaycanın da yerinin və rolunun təhlilini nəzərdə tutur. Böyük Britaniyanın Rusiya-Qacar müharibələri gedişində Azərbaycandakı siyasətinin çoxtərəfli aspektlərini əhatə etməklə, hazırkı dissertasiya işi indiyədək Vətən tarixşünaslığında adı çəkilən problemə dair mövcud informasiya boşluğunu doldurur. Bu baxımdan, nəzərdə tutulmuş kontekstdə XVIII–XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri və rolu mövzusu xüsusi tədqiqat obyekti olmamışdır.

Qeyd etmək lazımdır ki, təqdim olunmuş əsərdə XVIII–XIX

əsrin əvvəllərində Böyük Britaniyanın Azərbaycandakı siyasətinin sosial-iqtisadi və ticarət aspektləri nəzərdən keçirilmişdir. Britaniya-Qacar, Britaniya-Rusiya və Britaniya-Osmanlı münasibətləri kontekstində, XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətinin siyasi və diplomatik aspektləri, bu siyasətdə Azərbaycanın yeri nəzərdən keçirilmiş və araşdırılmışdır.

XVIII-XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri və rolunun indiyədək öyrənilməməsi tədqiqat mövzusunun seçimini doğrultmaqla yanaşı, daha aktual və zəruri edir. Adı çəkilən problemin Azərbaycan tarixinin öyrənilməsi üçün xüsusi əhəmiyyəti və bu istiqamətdə hər hansı monoqrafiya və digər elmi əsərlərin yoxluğunu nəzərə alan müəllif, həmin dövr Azərbaycan tarixinin ümumi və ayrı-ayrı aspektlərini işıqlandıran əsərləri nəzərdən keçirməklə, onlardan maksimal dərəcədə yararlanmağa çalışmışdır. Dissertasiyada qoyulmuş məsələlərin öyrənilməsi üçün Vətən, sovet, postsovet və xarici tarixşünaslığa aid əsərlər tədqiqata cəlb olunmuşdur. Cənubi Qafqazda və Azərbaycanda baş verən hadisələr haqqında ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün həmin tədqiqatların faktoloji materiallarından istifadə edilmişdir.

Tədqiq olunan dövrdə ölkəmizin tarixinin müxtəlif aspektlərini öyrənən Azərbaycan müəlliflərinin əsərlərini elmi dövriyyəyə cəlb etmədən bu tədqiqat dolğun səciyyə ala bilməzdi. Dissertasiyada araşdırılan hadisələrin bilavasitə iştirakçıları və müasirləri olan azərbaycanlı tarixçi-salnaməçilərin əsərlərindən – A.A.Bakıxanovun "Gülüstani-İrəm", Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Cavanşir Qarabağinin "Tarixi-Qarabağ" və başqa bu qəbil əsərlərdən istifadə olunmuşdur.[1] Qeyd olunan əsərlər Rusiya istilası ərəfəsi və sonrası Azərbaycan xanlıqları haqqında salnamə təhkiyələrini təmsil etməklə, araşdırılan dövrün Azərbaycan tarixinə dair faktlarla zəngin, dəyərli məlumatlarını özündə ehtiva edir.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan

[1] Бакиханов, А.А. Гюлистан-и-Ирам / А.А.Бакиханов. Редакция, комментарии, примечания и указатели акад. З.М. Буньятова. – Баку: Элм, – 1991; Qarabağnamələr. I kitab. – Bakı: Yazıçı, – 1989; Qarabağnamələr. II kitab. – Bakı: Yazıçı, – 1991; Qarabağnamələr. III kitab. – Bakı: Şərq-Qərb, – 2006.

tarixşünaslığında meydana çıxan əsərlərdə Türkiyə və Rusiya arxivlərindən yeni materiallar cəlb etməklə bir çox qaranlıq qalan məsələlərə yeni baxış müşahidə olunmağa başlanmışdır. Çoxəsrlik dövlətçiliyin inkişafı prosesində milli tariximizin danılmaz qüdrətinin dərk edilməsi və milli mədəniyyətimizin bənzərsizliyinə olan inamın yaranması Azərbaycanın dövlətçilik tarixi ənənələrinin bərpasına istiqamətlənmiş ümummilli ciddi-cəhdi də şərtləndirmişdir.[2]

Səfəvi dövlətinin xarici siyasətinin başlanğıc dövrü xüsusiyyətlərinin açılması üçün akademik Y.M.Mahmudovun "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı münasibətləri" adlı əsəri olduqca faydalı olmuşdur.[3] Azərbaycan dövlətlərinin diplomatiyası və digər dövlətlərlə əlaqələrinin tarixi akademikin başqa əsərlərində də araşdırılmışdır.[4] O.Əfəndiyev,[5] Ə.Rəhmani,[6] A.Əbdürrəhmanov,[7] S.Aşurbəyli,[8]

---

[2] Нифталиев, И. Становление национальной истории Азербайджана: проблемы, особенности, разночтения // «Историческое пространство», 2011, №1, с. 22.

[3] Махмудов, Я.М. Взаимоотношения государств Аггоюнлу и Сефевидов с западноевропейскими странами / Я.М.Махмудов. – Баку: Издательство Бакинского университета, – 1991.

[4] Mahmudov, Y.M. Səyyahlar Azərbaycana gəlir / Y.M.Mahmudov – Bakı: Gənclik, 1977; Mahmudov, Y.M. Odlar yurduna səyahət / Y.M.Mahmudov. – Bakı: Gənclik, 1980; Mahmudov, Y.M. Səyyahlar, kəşflər, Azərbaycan / Y.M.Mahmudov. – Bakı: Gənclik, – 1985; Mahmudov, Y.M. Azərbaycan diplomatiyası / Y.M.Mahmudov. – Bakı: Təhsil, 2006; Mahmudov, Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü (XV əsrin II yarısı). Dərs vəsaiti / Y.M.Mahmudov. – Bakı: Təhsil, – 2007.

[5] Эфендиев, О.А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века / О.А.Эфендиев. – Баку: Акад. наук АзССР, 1961; Эфендиев, О.А. Азербайджанское государство Сефевидов в XVI веке / О.А.Эфендиев. – Баку: Элм, – 1981; Əfəndiyev, O. Azərbaycan Səfəvilər dövləti / O.Əfəndiyev. – Bakı: Şərq-Qərb, – 2007.

[6] Рахмани, А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 гг.) / А.А.Рахмани. – Баку: Элм, –1981.

[7] Абдурахманов, А. Азербайджан во взаимоотношениях с Россией, Турцией и Ираном в первой половине XVIII в. / А.Абдурахманов. – Баку: Изд-во Акад. наук АзССР, – 1964.

[8] Ашурбейли, С.Б. История города Баку (период средневековья) / С.Б.Ашурбейли. – Баку: Элм, – 1992.; Ашурбейли, С.Б. Экономические и

H.Dəlili,[9] H.Abdullayev[10] və F.Əliyev[11] kimi nüfuzlu Azərbaycan alimləri tədqiq olunan dövrün Azərbaycan tarixinin öyrənilməsinə böyük töhfə vermişlər.

---

культурные связи Азербайджана с Индией в средние века / С.Б.Ашурбейли. – Баку: Элм, – 1990.

[9] Dəlili, H.Ə. Azərbaycan-Rusiya münasibətləri fars və azərbaycandilli sənədlərdə / H.Ə.Dəlili. – Bakı: 1976.; Dəlili, H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında) / H.Ə.Dəlili. – Bakı: Elm, – 1979.

[10] Абдуллаев, Г.Б. Азербайджан в XVIII в. и взаимоотношения его с Россией / Г.Б.Абдуллаев. – Баку: Изд-во Акад. наук АзССР, – 1965; Абдуллаев, Г.Б. Из истории северо-восточного Азербайджана в 60-80 г. XVIII в. / Г.Б.Абдуллаев. – Баку: Элм, – 1958.

[11] Алиев, Ф.М. Миссия посланника русского государства А.П.Волынского в Азербайджане / Ф.М.Алиев. – Баку: Элм, – 1979; Алиев, Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в I половине XVIII в. / Ф.М.Алиев. – Баку: Элм, – 1975; Алиев, Ф.М. Азербайджано-русские отношения в XV-XVIII вв. / Ф.М.Алиев. – Баку: Элм, – 1985.

T.Mustafazadə,[12] K.Şükürov,[13] C.Mustafayev,[14] Z.Hacıyeva[15], H.Həsənov,[16] V.Umudlu,[17] H.Sadıqov,[18] G.Məmmədova,[19]

---

[12] Мустафазаде, Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. / Т.Т.Мустафазаде. – Баку: Элм, – 1993; Mahmudov, Y.M. Mustafazadə, T.T. Azərbaycanın xarici ölkələrlə və xalqlarla münasibətləri tarixinin öyrənilməsi vəziyyətinə dair (nəticələr, perspektivlər) // Azərbaycan XXI əsrin astanasında. İkinci respublika elmi-praktiki konfransının materialları. – Bakı: 1998, – s. 510-515; Mustafazadə, T.T. Azərbaycan XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri / T.T.Mustafazadə. – Bakı: Elm, – 2002; Мустафазаде, Т.Т. Из истории русско-турецких отношений в 20-х годах XVIII века // – Москва: Отечественная История. Российская АН, – 2002, №2, – с. 15-30; Mustafazadə, T.T. Quba xanlığı / T.T.Mustafazadə. – Bakı: Elm, – 2005; Mustafazadə, T.T. Qarabağ xanlığı / T.T.Mustafazadə. – Bakı: Sabah, – 2010; Mustafazadə, T.T. Azərbaycan-Rusiya münasibətləri (XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəlləri) / T.T.Mustafazadə. – Bakı: Şərq-Qərb, – 2013; Русскоязычные источники по истории Азербайджана первой половины XVIII века / Составитель: автор транслитерации, введения и комментариев д.и.н., проф. Т.Т.Мустафазаде. – Баку: Элм, – 2016. Т. I (1701-1725 гг.).

[13] Şükürov, K.K. Azərbaycan tarixi: Üç hissədə. Ən qədim zamanlardan bizim günlərədək: Dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. II hissə / K.K.Şükürov. –Bakı: Şirvannəşr, – 1998; Şükürov, K.K. Türkmənçay – 1828: Tarixi xronika / K.Şükürov. – Bakı: 2006; Mahmudov, Y. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi, dovlətlərarası muqavilələr və digər xarici siyasət aktları 1639-1828: [4 cilddə]. / Y.Mahmudov, K.Şükürov. – Bakı: Regionların İnkişafı İctimai Birliyi,– I cild. – 2009; Mahmudov, Y.M. Qarabağ: Real tarix, faktlar, sənədlər / Y.M.Mahmudov, K.K.Şükürov. – Bakı: Təhsil, – 2005.

[14] Mustafayev, C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq / C.M.Mustafayev. – Bakı: Elm, – 2002.

[15] Hacıyeva, Z.Ə. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu / Z.Ə.Hacıyeva. – Bakı: Təhsil, – 2007; Гаджиева З.А. Гарабагское ханство: социально-экономические отношения и государственное устройство. Баку: Тахсил, 2008; Hacıyeva, Z.Ə. Təkrarlanan tarix – təkrarlanan şərhlər / Z.Ə.Hacıyeva. – Bakı: Şərq-Qərb, – 2011.

[16] Гасанов Г.Н., Умудлу В.У. Из истории Кюрекчайских договоров // Кюрекчайский договор – 200. – Баку: Тахсил, – 2005, – с.135-145.

[17] Umudlu, V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə: 1801-1828 / V.U.Umudlu. – Bakı: Elm, – 2004.

[18] Sadıqov, H.H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829-cu illər) / H.H.Sadıqov. – Bakı: Elm, – 1991; Sadıqov, H.H. Azərbaycan Avropa dövlətlərinin diplomatiyasında: 1747-1829 / H.H.Sadıqov. – Bakı: Təfəkkür, – 2004.

[19] Мамедова, Г. О походе В.Зубова в Азербайджан (1796 г.) / Г.Мамедова. – Баку: Елм, – 2003.

R.Aslanov,[20] E.Qarayev,[21] Ş.Həmidova,[22] M.Heydərov,[23] Ş.Fərzəliyev,[24] İ.Hüseynova,[25] H.Verdiyeva,[26] R.Dadaşova,[27] E.Paşayev[28] və başqa tanınmış Vətən tarixçilərinin əsərləri də bu istiqamətdə diqqətə layiqdir. O.Əlizadə,[29] Z.Hətəmzadə,[30] Q.Davudov,[31] B.Əhmədov,[32] E.Hüseynov[33] və başqaları öz əsərlərini Azərbaycanın beynəlxalq münasibətləri, o cümlədən Avropa dövlətlərinin Şərq siyasətinə həsr etmişlər. "Azərbaycan tarixi",[34]

---

[20] Асланов, Р.Б. Ирано-турецкие отношения в 20-60-х годах XIX в. / диссертация на соискание ученой степени кандидата исторических наук / – Баку: 1983.

[21] Qarayev, E.T. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirin-də / E.T.Qarayev. – Bakı: "ADPU" nəşriyyatı, – 2005; Qarayev, E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu– XIX yüzilliyin ortalarında) / E.T.Qarayev. – Bakı: Mütərcim, – 2016.

[22] Həmidova, Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən / Ş.P.Həmidova. – Bakı: Elm, – 1985.

[23] Гейдаров, М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. / М.Х.Гейдаров. – Баку: Элм, – 1982; Гейдаров, М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. / М.Х.Гейдаров. – Баку: Элм, – 1987; Гейдаров, М.Х. Торговля и торговые связи Азербайджана в позднем средне¬вековье / М.Х.Гейдаров. – Баку: Элм. – 1999.

[24] Фарзалиев, Ш.Ф. Труд Мир Мехди Хазани «Китаби-тарихи-Гарабаг» как ценный источник по истории Гарабахского ханства // Гарабаг: Кюрекчайский договор – 200. – Баку: Тахсил, – 2005, – с. 114-124.

[25] Гусейнова, И. История народов Кавказа: (новый и новейший периоды): учебник для высших учебных заведений / И.Гусейнова. – Баку: Тахсил, – 2006.

[26] Вердиева, Х.Ю. Азербайджан в контексте кавказской политики Российской империи: от Петра до Павла // Международный академический вестник, – 2014. №5(5) – с. 6-11; Вердиева, Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.) / Х.Ю.Вердиева. – Баку: Ecoprint, – 2016.

[27] Dadaşova, R.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda) / R.İ.Dadaşova. – Bakı: – 2003.

[28] Paşayeva, E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: 2005.

[29] Əlizadə, O. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi munasibətləri / O.Əlizadə. – Bakı: Elm, – 2009.

[30] Hatamzadə, Z.İ. Səfəvi-Fransa münasibətləri: XVI-XVIII əsrin əvvəllərində: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: 2015.

[31] Davudov, Q.S. XIX əsrin birinci otuzilliyində İran-Rusiya münasibətləri İran tarixşünaslığında: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: 2006.

[32] Əhmədov, B. XVII əsrin birinci yarısında İngiltərənin şərq siyasəti / B.Əhmədov. – Bakı: Naftapress, – 1988.

[33] Hüseynov, E.İ. Azərbaycan Nadir Şah Əfşarın hakimiyyəti dövründə: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: – 2013.

[34] Azərbaycan tarixi: [Yeddi cilddə]. (XIII-XVIII əsrlər). – Bakı: Elm, – III cild – 2007;

"Kürəkçay müqaviləsi – 200",[35] "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi"[36] kimi fundamental, ümumiləşdirici əsərlərdəki ehtiva olunan elmi faktlar və nəticələr də problemin araşdırılması üçün böyük dəyər kəsb edir.

XIX əsrin birinci yarısında Azərbaycanda cərəyan edən hadisələrin araşdırılması üçün müəllifləri Rusiyanın dövlət xadimləri, hərb tarixçiləri, publisistləri olan bir sıra rəsmi səciyyəli elmi tədqiqatlara müraciət etmək zərurəti olmuşdur. Bu tədqiqatçılar içərisində P.Q.Butkov,[37] P.Zubov,[38] V.A.Potto,[39] N.F.Dubrovin,[40]

---

Azərbaycan tarixi: [Yeddi cilddə]. (XIX əsr). – Bakı: Elm, – IV cild – 2007.

[35] Гарабаг: Кюрекчайский договор – 200. – Баку: Тахсил, – 2005.

[36] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / Y.M.Mahmudov [və b.]. – Bakı: – 2009.

[37] Бутков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг.: [в 3-х частях] / П.Г.Бутков. – Санкт-Петербург: – 1869, ч.1.

[38] Зубов, П.П. Персидская война в царствование императора Николая I / П.П.Зубов. – Санкт-Петербург: Конрад Вингебера, – 1837 (второе издание).; Зубов, П. Картина последней войны России с Персиею. 1826-1828 / П.Зубов. – Санкт-Петербург: тип. К.Вингебера, – 1834; Зубов, П. Подвиги русских воинов в странах Кавказских, с 1800 по 1834 г. / П.Зубов. – Санкт-Петербург: – Т. 2. Ч. 4. – 1836.

[39] Потто, В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях: [в 5 томах] / В.А.Потто. – Санкт-Петербург: Тип. Е.Евдокимова, – 1887. Том II; Потто, В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях: [в 5 томах] / В.А.Потто. – Санкт-Петербург: Тип. Е.Евдокимова, –1888. Том III; Потто, В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях: [в 5 томах] / В.А.Потто. – Санкт-Петербург: Тип. Е.Евдокимова, – 1889. Том IV.

[40] Дубровин, Н.Ф. История войн и владычества русских на Кавказе: [в 8 томах] / Н.Ф.Дубровин. – Санкт-Петербург: Тип. Департамента уделов, – 1871. Том I, Книга 2; Дубровин, Н.Ф. История войны и владычества русских на Кавказе: [в 8 томах] / Н.Ф.Дубровин. – Санкт-Петербург: Тип. Департамента уделов. – 1886. Т. IV. Ртищев и Ермолов; Дубровин, Н.Ф. История войн и владычества русских на Кавказе: [в 8 томах] / Н.Ф.Дубровин. – Санкт-Петербург: Склад издания у В.А.Березовского, – 1888. Том VI; Дубровин, Н. Георгий XII Последний царь Грузии и присоединение ее к России / Н.Дубровин. – Санкт-Петербург: Типография Департамента уделов, – 1867; Дубровин, Н.Ф. Закавказье от 1803-1806 года / Н.Ф.Дубровин. – Санкт-Петербург: – 1866.

A.P.Berje[41] və A.P.Şerbatovun[42] adlarını xüsusi vurğulamaq olar. Bu əsərlər əvvəllər nəşr edilməmiş böyük sayda sənədlərin, başlıca olaraq Rusiya imperiyası xarici işlər nazirliyinin sənədlərinin elmi dövriyyəyə cəlb edilməsi əsasında yazılmışdır. Bu tədqiqatlardakı zəngin faktoloji materiala baxmayaraq, müəyyən qərəzli xarakterli və bəzən də qeyri-dəqiq məlumatların olmasını da qeyd etmək lazımdır. Bununla yanaşı, XVIII – XIX əsrin birinci qərinəsi Azərbaycan tarixinin ən müxtəlif problemlərini öyrənməyə imkan verən həmin əsərlərin böyük elmi dəyərini də inkar etmək olmaz.

Sovet tarixşünaslığında Cənubi Qafqazda beynəlxalq münasibətlərin ümumi məsələlərini işıqlandıran fundamental tədqiqatlar arasında O.Markova[43], A.Fadeyev,[44] L.Semyonov[45],

[41] Берже, А.П. Хосров-Мирза, персидский принц 1802-1875 гг.: Историко-биографический очерк // – Санкт-Петербург: Русская старина. – 1879. №6, – с. 333-352; Берже, А.П. Хосров-Мирза, персидский принц 1802-1875 гг.: Историко-биографический очерк // – Санкт-Петербург: Русская старина. – 1879. №7. С. 401-414; Берже, А.П. Александр Сергеевич Грибоедов. Деятельность его как дипломата 1827-1829 г. // – Санкт-Петербург: Русская старина. – 1874. Т. 11, – с.516-534; с.746-765; Берже, А.П. Александр Сергеевич Грибоедов в Персии и на Кавказе 1818-1828 г. // – Санкт-Петербург: Русская старина. – 1874. №10, – с. 275-300; Берже, А.П. Посольство Ермолова в Персию: Исторический очерк // – Санкт-Петербург: Русская старина. – 1877. Т. 19, – с. 255-274; – с. 389-427.

[42] Щербатов, А.П. Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность: [в 9 томах]. Санкт-Петербург: 1888-1904.

[43] Маркова, О.П. Россия, Закавказье и международные отношения в XVIII века/ О.П.Маркова. – Москва: Наука, – 1966.

[44] Фадеев, А.В. Россия и Восточный кризис 20-х гг. XIX в. / А.В.Фадеев. – Москва: Издательство Восточной литературы, – 1958.

[45] Семенов, Л.С. Россия и международные отношения на Среднем Востоке в 20-х годах XIX в. / Л.С.Семенов. – Ленинград: ЛГУ, – 1963; Семенов, Л.С. К вопросу о значении Туркманчайского договора для истории Армении // – Ереван: Историко-филологический журнал. АН Арм. ССР, – 1959, Вып. 2, №4. – с.105-122.

N.Kinyapin[46], F.Abdullayev[47], H.M.İbrahimbəyli,[48] O.Orlik,[49] N.Tumanoviç[50] və digərilərinin monoqrafiyalarını qeyd etmək olar. Bu monoqrafiyalarda tədqiq edilən mövzuya dair zəngin faktiki material vardır. Adları çəkilən müəlliflərin əsərləri Rusiyanın Şərq siyasətinin bəzi aspektlərini, həmçinin çarizmin Səfəvilər, Əfşarlar və Qacarlar dövlətləri ilə, Azərbaycan xanlıqları ilə qarşılıqlı münasibətlərini anlamaq baxımından böyük əhəmiyyət kəsb edir. Bu aspektdə N.Kuznetsova,[51] V.Hacıyev,[52] N.Sotavov,[53]

---

[46] Киняпина, Н.С. Кавказ и Средняя Азия во внешней политике России. Вторая половина XVIII – 80-е годы XIX века / Н.С.Киняпина, М.М.Блиев, В.В.Дегоев. – Москва: Издательство Московского университета, – 1984; Киняпина, Н.С. Внешняя политика Николая I // – Москва: Новая и новейшая история, – 2001. №1, – с. 192-210; Киняпина, Н.С. Внешняя политика России первой половины XIX века / Н.С.Киняпина. – Москва: Высшая школа, – 1963.

[47] Абдуллаев, Ф. Из истории русско-иранских отношений и английской политики в Иране в начале XIX века / Ф.Абдуллаев. – Ташкент: Фан, – 1971.

[48] Ибрагимбейли, Х.М. Кавказ в Крымской войне 1853-1856 гг. / Х.М.Ибрагимбейли. – Москва: Наука, – I971.

[49] Орлик, О.В. Россия в международных отношениях, 1815-1829: От Венского конгресса до Адрианопольского мира / О.В.Орлик. – Москва: Наука, – 1998.

[50] Туманович, Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. / Н.Н.Туманович. – Москва: Наука, – 1982.

[51] Кузнецова, Н.А. Иран в первой половине XIX века / Н.А.Кузнецова. – Москва: Наука. – 1983; Кузнецова, Н.А. Эволюция государственного аппарата каджарского Ирана (с конца XVIII века до 60-х годов XIX века) // – Москва: ИРАН: история и современность / Под ред. Л.М.Кулагиной, Н.М.Мамедовой; Сост. И.Е.Федорова, Л.М.Раванди-Фадаи. Москва: ИВ РАН; Центр стратегической конъюнктуры, – 2014, – с.17-25.

[52] Гаджиев, В.Г. Разгром Надир Шаха в Дагестане / В.Г.Гаджиев. – Махачкала: Тип. Мининформпечати РД, – 1996.

[53] Сотавов, Н.А. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях в XVIII в. / Н.А.Сотавов. – Москва: Наука, – 1991; Сотавов, Н.А. Крах «Грозы вселенной» / Н.А.Сотавов. – Махачкала: – 2000.

İ.Yenikolopov,[54] S.Şostakoviç[55] və M.İqamberdıyevin[56] əsərlərini də qeyd etmək olar. Bu əsərlərdə Avropa dövlətlərinin Qafqaz regionunda nüfuz əldə etmək uğrunda rəqabəti, Qacar hökumətinin daxili və xarici siyasəti və s. bu kimi məsələlər araşdırılır.

---

[54] Ениколопов, И.К. А.С.Грибоедов в Грузии и Персии. Историко-биографический очерк / И.К.Ениколопов. – Тифлис: Заккнига, 1929; Грибоедов в Грузии. При участии М.Заверина / И.К.Ениколопов. Тбилиси: Заря Востока, – 1954; Ениколопов, И.К. Грибоедов и Восток. Ереван: Айпетрат, – 1954; Ениколопов, И.К. Из истории русско-иранских отношений и дипломатической деятельности А.С.Грибоедова // – Ереван: Историко-филологический журнал, – 1962. №4, – с. 143-150; Ениколопов, И.К. «Записка о переселении армян из Персии в наши области» и ее настоящий автор // – Ереван: Известия Академии наук Армянской ССР, Общественные науки, – 1949. №8, – с.69-73.

[55] Шостакович, С.В. Дипломатическая деятельность Грибоедова / С.В.Шостакович. – Москва: Соцэкгиз, – 1955; Шостакович, С.В. Из истории английской агрессии па Ближнем и Среднем Востоке. Сколачивание британской дипломатией в первой половине XIX века антирусского ирано-турецкого блока // – Иркутск: Ученые записки. Иркутский Педагогический институт, – 1955. Вып. II, – с.125-154; Шостакович, С.В. О секретаре Грибоедовской миссии Иване Сергеевиче Мальцове // – Иркутск: Труды Иркутского государственного университета им. А.А.Жданова. Серия историко-экономическая, – 1958. Т. XXV. Вып. 1, – с. 137-147; Шостакович, С.В. К истории искупительного посольства Хосров мирзы (из архивных материалов о Грибоедовской миссии) // – Иркутск: Труды Иркутского государственного университета им. А.А.Жданова. Серия историко-экономическая, – 1958. Т. XXV. Вып. 1, – с.149-168; Шостакович, С.В. Английская дипломатия и борьба вокруг престола в Иране в первой половине XIX в. // Вопросы истории международных отношений и колониальной политики: [сб. ст.]. – Иркутск: – 1974. Вып. 1, – с. 45-69.

[56] Игамбердыев, М.А. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории) / М.А.Игамбердыев. – Москва: Наука, – 1969.

İ.Petruşevski,[57] V.Leviatov,[58] N.Kukanova,[59] A.Yuxt,[60] X.Atayev[61] və H.Rəhimovun[62] əsərləri Azərbaycanda siyasi və sosial-iqtisadi münasibətlər tarixinin öyrənilməsinə dair mühüm tədqiqatlardır. Adı çəkilən əsərlərdə XVIII – XIX əsrin əvvəllərinin hərbi-siyasi hadisələri haqqında məlumatlara da rast gəlmək mümkündür.

Qeyd olunan dövrdə Cənubi Qafqazda beynəlxalq münasibətlərin tarixinə aid əsərləri olan müasir Rusiya müəllifləri içərisində V.Deqoyev,[63] Q.Caxiyev,[64] L.Kulaqina,[65] S.Əliyev,[66]

---

[57] Петрушевский, И. Джаро-Белоканские вольные общества в первой трети XIX столетия / И.Петрушевский. – Тифлис: в издательстве «Заря Востока», – 1934; Петрушевский, И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-XIX вв. / И.П.Петрушевский. – Ленинград: Издательство Ленинградского Государственного Университета, – 1949.

[58] Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII века / В.Н.Левиатов. – Баку: Изд-во АН Азерб. ССР, – 1948; Левиатов, В.Н. Из истории южных ханств Азербайджана (вторая половина XVIII в.) // – Баку: Доклады АН АзССР, – 1946, том II, №7, – с. 308-312.

[59] Куканова, Н.Г. Очерки по истории русско-иранских торговых отношений в XVII – первой половине XIX века (по материалам русских архивов) / Н.Г.Куканова. – Саранск: Мордов. книж. изд-во, – 1977.

[60] Юхт, А.И. Торговля России с Закавказьем и Персией во второй четверти XVIII в. // – Москва: История СССР, – 1961, №1, – с.131-146; Юхт, А.И. Торговые компании в России в середине XVIII в. // – Москва: Исторические Записки, – 1984, том 111, – с. 238-295.

[61] Атаев, Х.А. Торгово-экономические связи Ирана с Россией в XVIII – XIX вв. / Х.А.Атаев. – Москва: Наука, – 1991.

[62] Рагимов, Г. Торгово-экономические аспекты в Русско-азербайджанских отношениях во второй половине XVIII– в начале XIX веков / Г.Рагимов. – Баку: Азернешр, – 1998.

[63] Дегоев, В. Большая игра на Кавказе: история и современность (вторая половина XVIII в.) / В.Дегоев. – Москва: Русская панорама, – 2003; Дегоев, В.В. Кавказ и великие державы 1829-1864 гг. Политика, война, дипломатия / В.В.Дегоев. – Москва: Рубежи XXI, – 2009; Дегоев, В.В. Приз для победителя / В.В.Дегоев, И.И.Стамова. Москва: МГИМО – Университет, – 2013.

[64] Джахиев, Г.А. Россия и Дагестан в начале XIX в. / Г.А.Джахиев. – Махачкала: Даг. кн. изд-во, – 1985; Джахиев, Г.А. Дагестан в международных отношениях на Кавказе (1813-1829 гг.) / Г.А.Джахиев. – Махачкала: Дагест. кн. издательство, – 1991.

[65] Кулагина, Л.М. Экспансия английского империализма в Иране в конце XIX – начале XX в. / Л.М.Кулагина. – Москва: Наука, – 1981; Кулагина, Л.М. Россия и Иран (XIX – начало XX века) / Л.М.Кулагина. – Москва: Ключ-С, – 2010.

[66] Алиев, С.М. Междоусобные войны и борьба за верховную власть в Иране после распада империи Надир Шаха. История и культура в середине века и новое время / С.М.Алиев. – Москва: Наука, – 1980; Алиев, С.М. История Ирана XX век / С.М.Алиев. – Москва: ИВРАН-Крафт, – 2004.

Y.Roqozina,[67] O.Kuznetsov[68] və V.Sidorovanı[69] qeyd etmək olar.

Adı çəkilən problemlərin işıqlandırılmasında Qərb müəlliflərindən D.Malkolm,[70] S.Kerzon,[71] R.Vatson,[72] L.Lokkart,[73]

---

[67] Рогозина, Я.В. Из истории возвышения династии Каджаров // – Санкт-Петербург: Вестник Санкт-Петербургского Университета, – 2008. Сер. 9. Вып. 2. Ч. II, – с. 287-295.

[68] Кузнецов, О.Ю. Гюлистанский мир: 200 лет спустя (Опыт исторического осмысления событий русско-персидской войны 1804-1813 годов и Гюлистанского договора в контексте его 200-летия) // – Стокгольм: Центральный Кавказ: ретроспектива столкновения цивилизаций. Сб. статей. Стокгольм: CA&CC Press, – 2013, – с. 39-85; Кузнецов, О.Ю. «Дорога на Гюлистан...»: путешествие по ухабам истории (рецензия на книгу О.Р.Айрапетова, М.А.Волхонского, В.М.Муханова «Дорога на Гюлистан... (Из истории российской политики на Кавказе во второй половине XVIII – первой четверти XIX в.)») / О.Ю.Кузнецов. – Москва-Тула: Гриф и К, – 2014.

[69] Сидорова, В.П. Товарооборот между Ираном и Великобританией в 30-40-е гг. 18 века // – Москва: Вестник МГОУ, Серия «История и политические науки», – 2011. №3, – с.183-188; Сидорова, В.П. Транзитная торговля Британских купцов с Ираном через территорию России В 30-40-е гг. XVIII в.: / автореферат диссертации … кандидата исторических наук / – Москва: 2012.

[70] Malcolm, J. The history of Persia, from the early period to the present time / J.Malcolm. – London: John Murray, – Vol. II, – 1815.

[71] Curzon, G.N. Persia and Persian question: [in 2 vol.] / G.N.Curzon. – London-New York: – Vol. I. – 1892; Curzon, G.N. Persia and Persian question: [in 2 vol.] / G.N.Curzon. – London-New York: – Vol. II. – 1892.

[72] Watson, R.G. A History of Persia from the beginning of the nineteenth century to the year 1858 / R.G.Watson. – London: Smith, Elder and Co., – 1866.

[73] Lockhart, L. Nadir Shah. A critical study based mainly upon contemporary sources / L.Lockhart. – London: Luzac & Co., 1938; Lockhart, L The fall of the Safavi dynasty and the afghan occupation of Persia / L.Lockhart. – Cambridge: Cambridge University Press, – 1958; Lockhart, L European contacts with Persia, 1350-1736 // The Cambridge history of Iran, – 1986. Vol. VI, – p. 373-411.

P.Sayks,[74] M.Atkin,[75] R.Seyvori,[76] R.Fray,[77] D.Baddley,[78] R.Perri,[79] F.Rassel[80] və başqalarının xeyli faktiki material ehtiva edən əsərləri də elmi əhəmiyyətə malikdir.

Nisbətən müasir tədqiqatçılardan P.Averin,[81] R.Tayper,[82]

---

[74] Sykes, P. A history of Persia. [in 2 volumes] / P.Sykes. – London: Macmillan & co. ltd. – Vol. II. – 1915; Sykes, P. History of Afghanistan. [in 2 volumes] / P.Sykes. – London: Macmillan & co. ltd. – Vol. I, – 1930; Sykes, P. Persia. By brigadier-general sir Persy Sykes, author of "A history of Persia" / P.Sykes. – Oxford: Oxford at Clarendon Press. – 1922.

[75] Atkin, Muriel. The strange death of Ibrahim Khalil Khan of Qarabagh // – New York: Iranian Studies, Published in the USA, – 1979. Vol. XII, №1-2, – p. 79-107; Atkin, Muriel. Russia and Iran 1780-1828 // – Minneapolis: University of Minnesota Press, – 1980; Atkin, Muriel. Soviet and Russian Scholarship on Iran // – New York: Iranian Studies, Published in the USA. – 1987. Vol. XX, №2-4, – p. 223-251.

[76] Savory, R.M. Notes on the Safavid state // Iranian Studies, Published in the USA. – Vol. I, №3, – 1968, – p. 96-101; Savory, R.M. Iran under the Safavids / R.M.Savory. Cambridge: Cambridge University Press, – 1980.; Savory, R.M. Studies on the history of Safavids Iran / R.M.Savory. London: Galliard (Printers) Ltd., – 1987; Savory, R.M. The Safavid administrative system // The Cambridge history of Iran. – Vol. VI. – 1986, – p. 351-372.

[77] Frye, R.N. Iran / R.N.Frye. – New-York: Harvard University, – 1953.

[78] Baddeley, J.F. The Russian conquest of the Caucasus / J.F.Baddeley. – London: Longmans, – 1908.

[79] Perry, J.P. Forced migration in Iran during the seventeenth and eighteenth centuries // Iranian Studies, Published in the USA. – Vol. XVIII, №4, – 1975, – p. 199-216; Perry, J.P. Karim Khan Zand (1747-1779) / J.P.Perry. – Chicago and London: University of Chicago Press, – 1979; Perry, J.P. The Zand Dynasty // – Cambridge: The Cambridge history of Iran: From Nadir Shah to the Islamic Republic. – 1993. Vol. VII, – p. 63-103.

[80] Russell, F.S. Russo-Turkish War, 1828-1829. Eastern question (Balkan) / F.S.Russell. – London: H.S. King & Co., – 1877.

[81] Avery, P. Nadir Shah and Afsharid legacy // The Cambridge history of Iran: From Nadir Shah to the Islamic Republic. – Cambridge: – 1993, Vol. VII. p.3-62; Avery, P.W. An Enquiry into the Outbreak of the Second Russo-Persian War, 1826-28 // – Edinburgh: Iran and Islam, in Memory of Vladimir Minorsky / ed. C.E.Bosworth, – 1971, – p.17-45.

[82] Tapper, R. Shahsevan in Safavid Persia // Bulletin of the School of the Oriental and African studies. – University of London. –Volume 37, Issue 2 June – 1974, – p. 321-354; Tapper, R. Frontier Nomads of Iran: A Political and Social History of the Shahsevan / R.Tapper. – Cambridge: Cambridge University Pres. – 1997; Tapper, R. The tribes in eighteenth and nineteenth century Iran // The Cambridge history of Iran: From Nadir Shah to the Islamic Republic. – Cambridge: Cambridge University Pres. – Vol. VII. – 1993, – p. 506-541.

E.İnqram,[83] V.Flur,[84] E.Taker,[85] M.Aksuorti,[86] İ.Naçxebiya[87] və başqalarının əsərləri araşdırılan məsələnin işıqlandırılması baxımından şübhəsiz ki, böyük dəyər kəsb edir. Adları çəkilən müəlliflər dövrün araşdırılmasında yeni istiqamətlərin başlanğıcını qoymuş və bizim regionun tarixinə yeni maraq dalğasının meydana çıxmasına təkan vermişdilər. Xarici tarixşünaslıqda D.Ridinq,[88] T.M.Riks,[89] E.Herziq[90] və E.K.S.Lembtonun[91] İranın və Azərbaycanın iqtisadi və ticarət əlaqələrinin tarixinə dair fundamental tədqiqatları da xüsusi vurğulana bilər.

"Kembric İran tarixi" silsiləsindən olan kollektiv nəşr İran tarixi üzrə iri həcmli bir əsər olub, bu ölkənin, eləcə də Azərbaycanın

---

[83] Ingram, E. Britain's Persian connection, 1798-1828: prelude to the Great Game in Asia / E.Ingram. – Oxford: Clarendon Press, – 1992.

[84] Floor, W. The Iranian Navy in the Gulf during the eighteenth century // Iranian Studies, Published in the USA, – 1987. Vol. XX, №1, – p. 31-53; Floor, W. Safavid Government Institution / W.Floor. – Costa Mesa: Mazda Publishers, – 2001; Floor, W. Faghfoory Dastur al-Moluk, A Safavid State Manual / W.Floor, H.Mohammad. – Costa Mesa: Mazda Publishers, – 2007; Floor, W. The rise and fall of Nader Shah, Dutch east India company reports, 1730-1747 / W.Floor. – Washington: Mage Publishers, – 2009.

[85] Ernest, S.Tucker. Nadir Shah's Quest for Legitimacy in Post-Safavid Iran / S.T.Ernest. – Florida: 2006.

[86] Axworthy, M. The Sword of Persia: Nadir Shah, from Tribal Warrior to Conquering Tyrant / M.Axworthy. – London, UK and New York: I.B. Tauris, – 2006.

[87] Natchkhebia, I. Envoys of Napoleon: General Gardane's Mission to Persia, 1807-1809 // Qajar studies: Travellers and diplomats in the Qajar era, journal of international Qajar studies association, – 2007, Volume VII; Natchkhebia, I. Unfinished Project: Napoleon's Policy in Persia in the context of the Indian Expedition and Georgia // Journal of the International Qur'anic Studies Association IQSA journal, – 2005. N5, – p.17-39; Natchkhebia, I. Unfinished Project: Napoleon's Policy in Persia in the context of the Indian Expedition and Georgia // Journal of the International Qur'anic Studies Association IQSA journal, – 2005. N5, – p.17-39; The Issue of Georgia in Napoleon's Policy in Persia (1804-1810). Lingua-Culture Contextual Studies in Ethnic Conflicts of the World (LiCCOSEC), Annual Report 2011, 20 (2012) Osaka: Research Institute for World Languages, Osaka University, 2012.

[88] Reading, D.K. The Anglo-Russian Commercial Treaty of 1734 / D.K.Reading. – New Haven: CT, – 1938.

[89] Ricks, T.M. Towards a social and economic history of eighteenth century Iran // Iranian Studies, Published in the USA. – Vol. VI, №2-3, – 1973, – p. 110-126.

[90] Herzig, E.M. The Volume of Iranian Raw Silk exports in the Safavid period // Iranian Studies, Published in the USA. – Vol. XXV. – №1-2, 1992, – p. 61-79.

[91] Lambton, A. Landlord and Peasant in Persia / A.Lambton. – London: Oxford University Press, – 1953.

tarixi üzrə qiymətli məlumatları ehtiva etməklə son dərəcə əhəmiyyətli və nüfuzlu əsərlərdəndir.[92] Bizim üçün əhəmiyyətli olan məsələlər kitabın "Teymurilər və Səfəvilər dövrü" və "Nadir şahın dövründən İslam inqilabınadək" adları altında müvafiq olaraq VI və VII cildlərində öz əksini tapmışdır.

Problemin öyrənilməsi gedişində İran tarixçilərinin tərcümə olunmuş əsərlərindən də istifadə edilmişdir. Bu əsərlərdən Böyük Britaniyanın Qacar dövlətindəki siyasətinin başlıca məqamlarını və səciyyəvi xüsusiyyətlərini daha dərindən anlamağa imkan verən olduqca maraqlı məlumatlar əldə etmək mümkün olmuşdur. Tədqiqat gedişində F.Adəmiyyat,[93] R.Ramazani,[94] R.Şabani,[95] M.Beyruz,[96] M.Mahdiyan,[97] M.Tehrani[98] və başqa İran tədqiqatçılarının əsərlərindən istifadə edilmişdir.

Azərbaycan tarixi məsələlərinin araşdırılmasında Türkiyə tarixçilərinin tədqiqatları da şübhəsiz, xüsusi qeyd edilməlidir. Tədqiqatda İ.Uzunçarşılı,[99] A.N.Kurat,[100] Ə.Cəfərpur,[101]

---

92 The Cambridge history of Iran: [in 7 volumes]. The Timurid and Safavid Periods. Cambridge: – Vol. VI, – 1986; Cambridge history of Iran: [in 7 volumes]. From Nadir Shah to the Islamic Republic. Cambridge: – Vol. VII. – 1993.

93 Adamiyat, F. The Diplomatic relations of Persia with Britain, Turkey and Russia 1815-1830: / Thesis to be presented for the Ph. D. / – Degree of the University of London. October, – 1949.

94 Ramazani, R.K. The foreign policy of Iran. A developing nation in world affairs (1500-1941) / R.K.Ramazani. – Charlottesville: University Press of Virginia, – 1966; Ramazani, R.K. Persian Gulf. Iran's Role / R.K.Ramazani. – Charlottesville: University Press of Virginia, – 1972.

95 Шабани, Р. Краткая история Ирана / Р.Шабани. – Санкт-Петербург: Петербургское востоковедение, – 2008.

96 Maziar, Behrooz. Revisiting the Second Russo-Iranian War (1826-1828): Causes and Perceptions // Iranian Studies, – Volume 46, Issue 3, – 2013, – p.1-23.

97 Махдиян, М.Х. История межгосударственных отношений Ирана и России (XIX – начало XXI века) / М.Х.Махдиян. – Москва: ИВ РАН, Центр стратегической конъюнктуры, – 2014.

98 Məhbubə, Tehrani. Kərim xan Zənd. Tərcüməçi: Əkrəm Bağırov / M.Tehrani. – Bakı: Elm və təhsil, – 2017.

99 Uzunçarşılı İ.H. Osmanlı Tarihi, IV cilt, I bölum / İ.H.Uzunçarşılı. – İstanbul: Türk Tarih Kurumu, – 2011.

100 Kurat, A.N. Türk-ingiliz münasebetlerine kısa bir bakış (1553-1952) / A.N.Kurat. – Ankara: Türk Tarih kurumu basimevi, – 1952; Kurat, A.N. XVIII Yüzyıl Sonundan Kurtuluş Savaşına Kadar Türk-Rus İlişkileri (1798-1919) / A.N.Kurat. Ankara: Türk Tarih Kurumu Yayınları, – 2011.

101 Djafar-Pour, Ali. Nadir şah Devrinde Osmanlı-İran munasebetleri: / Ph.D. diss. – İstanbul Universitesi, Edebiyat Fakultesi, – 1977.

M.Aktepe,[102] Ə.Təkdəmir,[103] K.Beydilli,[104] K.Gökçe[105] və digər türk tarixçilərinin araşdırmalarından istifadə olunmuşdur. Bu əsərlər ayrı-ayrı elmi məsələlərin əsaslandırılmasında əhəmiyyətli dərəcədə təməl olmuşdur, belə ki, bizim ölkəmizin arxivlərində olmayan dəyərli qaynaqlardan zəngin faktiki materialı ehtiva edir.

Xarici müəlliflərin əsərləri tədqiqat mövzusunun mahiyyətinə daha dərindən varmağa və müxtəlif nəzər nöqtələrinin müqayisəsi və təhlili yolu ilə bu və ya digər hadisənin motivlərini üzə çıxarmağa və dəyərləndirməyə imkan verir. Ümumilikdə, xarici müəlliflərin əsərlərinin tənqidi təhlili bütövlükdə Qafqaz problemini obyektiv işıqlandırmaq, eləcə də Azərbaycanın o dövrdəki siyasi proseslərdə gerçək rolunu aydınlaşdırmaq üçün zəruri olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XVIII – XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri və roludur. Tədqiqatın predmeti Böyük Britaniyanın XVIII əsrin birinci yarısında Azərbaycana nüfuz etmə cəhdləri, XVIII əsrin ikinci yarısında Azərbaycanda siyasi pərakəndəlik dövründə və eləcə də, XIX əsrin ilk sülsündə Rusiya-Qacar müharibələri ərəfəsi və dövründə Böyük Britaniyanın Şərq siyasətidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müdafiəyə təqdim olunmuş dissertasiya işinin əsas məqsədi indiyədək Azərbaycan tarixşünaslığında xüsusi araşdırma obyekti olmamış problemin – XVIII əsrdə Böyük Britaniyanın Şərq siyasətində və region ölkələri ilə ticarət və diplomatik münasibətlərində, həmçinin Rusiya-Qacar müharibələri (1804-1813; 1826-1828) ərəfəsində və gedişində Britaniyanın siyasətində Azərbaycanın yerinin və rolunun hərtərəfli

---

[102] Münir, Aktepe M. 1720-1724 Osmanlı-Iran Munasibetleri və Silaşör Kamani Mustafa Ağanın Revan Fateh-namesi / A.M.Münir. – İstanbul: 1970; Münir, Aktepe M. Nadir Şah'ın Osmanlı Padişahı I Mahmud'a gönderdiği Taht-i Tavus Hakkında // – İstanbul: Tarih Dergisi, – №28-29. – 1975, – s. 113-122.

[103] Tekdemir, Aziz. XIX Yüzyılın ilk çeyreğinde Osmanli-Iran ihtilaflari ve 1821-1823 savaşı // Karadeniz (Black Sea-Çernoye More) Sosyal Bilimler Dergisi, – Number: 4, – 2010, – s. 77-95.

[104] Beydilli, K. 1828-1829 Osmanlı-Rus Savaşı'nda Doğu Anadolu'dan Göçürülen Ermeniler // – Ankara: Türk Tarih Kurumu, Belgeler, Türk Tarih Belgeleri Dergisi, – 1988, c. XIII, sayı: 17'den ayrı basım, – s. 365-478.

[105] Gokce, Gemal. Kafkasya ve Qsmanli imperatorlugunun Kafkasya siyaseti / G.Gokce. – İstanbul: Has-Kutulmus Matbaasi, – 1979.

və kompleks şəkildə öyrənilməsi və işıqlandırılmasıdır. Dissertasiyada adı çəkilən problem indiyədək dövriyyədə istifadə olunmayan mənbələrin, eləcə də Azərbaycan və xarici müəlliflərin müxtəlif məzmunda nəşrlərinin və əsərlərinin cəlb edilməsi əsasında ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir.

Dissertasiyanın əsas məqsədindən çıxış edərək tədqiqat gedişində aşağıdakı elmi vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- XVIII əsrin birinci yarısında Böyük Britaniyanın Səfəvilər dövləti ilə ticarət və diplomatik münasibətlərində Azərbaycanın əhəmiyyətini göstərmək;
- Böyük Britaniyanın Nadir şah dövləti ilə hərbi və ticarət sahəsində əməkdaşlığında Azərbaycanın Xəzəryanı bölgələrinin rolunu işıqlandırmaq;
- Britaniya-Qacarlar münasibətlərində "Rusiya amilinin" təsir dərəcəsini müəyyənləşdirmək;
- Böyük Britaniyanın Şərq siyasətinin Osmanlı imperiyasının və Qacar dövlətinin geosiyasi mənafelərinə və ümumən Azərbaycanda beynəlxalq münasibətlərin formalaşmasına təsir dərəcəsini göstərmək;
- Tədqiq olunan dövrdə Böyük Britaniyanın Şərq siyasəti kontekstində Rusiya-Qacar münasibətlərinin kəskinləşməsində Azərbaycan amilinin yerini və rolunu üzə çıxarmaq;
- Böyük Britaniyanın Qacar dövləti ilə imzaladığı müqavilələrin mahiyyətini və səciyyəsini, eləcə də onların Cənubi Qafqazdakı və Azərbaycandakı vəziyyətə təsirini göstərmək;
- Böyük Britaniya və Rusiya arasında Azərbaycana təsir uğrunda rəqabətin səviyyəsini göstərmək;
- Osmanlı imperiyasının Qacar dövləti ilə qarşılıqlı münasibətlərində Böyük Britaniyanın rolunu müəyyənləşdirmək;
- İkinci Rusiya-Qacar müharibəsinin (1826-1828) başlanmasının ilkin şərtlərini Böyük Britaniyanın Tehran müqaviləsi (1814) ilə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində nəzərdən keçirmək;
- Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin bağlanılması prosesini və onların nəticələrini təhlil etmək;
- Ermənilərin Qacar dövlətindən və Osmanlı imperiyasından

Şimali Azərbaycana köçürülməsi prosesini Britaniya diplomatlarının verdiyi məlumatlar əsasında nəzərdən keçirmək və nəticələrini göstərmək;

- Rusiya-Qacar müharibələrinin (1804-1813; 1826-1828) yekunlarının Böyük Britaniyanın regiondakı mövqelərinə təsirini işıqlandırmaq.

**Tədqiqat metodları.** Tədqiqat gedişində toplanan faktoloji material konkret faktlar əsasında Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yerini və rolunu daha geniş, beynəlxalq hadisələr fonunda öyrənməyə imkan verir. Dissertasiyada Böyük Britaniyanın Azərbaycandakı və bütövlükdə Cənubi Qafqazdakı siyasətini rekonstruksiya etməyə imkan verən bütün mümkün mənbələr və elmi ədəbiyyat üzə çıxarılaraq tədqiqat prosesinə cəlb edilmiş, tədqiqat mövzusuna daxil olan məsələlər yeni baxış əsasında işlənmişdir.

Tədqiqat işinin özülündə tarixilik prinsipi durur; bu prinsip bütün tarixi hadisələri, onların konkret-tarixi şəraitdə meydana gəlməsi, inkişafı, dəyişməsi, sonrakı tarixi inkişaf üçün onların əhəmiyyətinin üzə çıxarılması prosesini də nəzərdən keçirir. Əsərdə, həmçinin xronoloji və problem yanaşmasından, obyektivlik və yetərli əsaslandırma prinsipindən, eləcə də bəzi digər tarixi prinsiplərdən (analitik, tarixi-sistem, tarixi-müqayisəli) istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- XVIII əsrin birinci yarısından başlayaraq Böyük Britaniya Cənubi Qafqazda və Azərbaycanda nüfuz əldə etmək uğrunda fəal şəkildə mübarizəyə başlayır. Azərbaycanda öz mövqeyini gücləndirmək tədricən Böyük Britaniyanın Şərq siyasətinin bir istiqamətinə çevrilir. Qeyd edək ki, Böyük Britaniyanın Azərbaycandakı maraqları ilk növbədə ölkənin əlverişli strateji mövqeyi və ticarət əhəmiyyəti ilə şərtlənmişdi. Azərbaycanın Xəzər dənizi limanları Avropanı təkcə İranla deyil, həm də Cənubi Qafqaz, Mərkəzi Asiya, eləcə də Hindistanla bağlayan mühüm tranzit mərkəzləri idi. Azərbaycandan xarici bazarlara xam ipək, pambıq, yun, ipək və pambıq parçalar, ədviyyat, meyvə, şərab və s. ixrac olunurdu. Ən qiymətli ixracat məhsulu isə xam ipək idi.

- XVIII əsrin birinci yarısında Britaniyanın Azərbaycanda Şərq

siyasəti bölgədə ticari və diplomatik nüfuzun bərqərar edilməsi ilə məhdudlaşmışdı. Böyük Britaniya öz ticarət şirkətlərinin mənafelərini, regionda üstünlük əldə etmək üçün açıq şəkildə gərgin rəqabətə girmədən, diplomatik manevrlərlə qoruyurdu. Böyük Britaniyanın regionda daha fəal siyasət yürütməsinə ilk növbədə, Rusiyanın və Osmanlı İmperiyasının fəal hərbi ekspansiyası mane olurdu.

- Səfəvilər dövlətinin süqutundan sonra, XVIII əsrin 30-40-cı illərində ilk dəfə Böyük Britaniyanın və Rusiyanın mənafeləri Azərbaycanda toqquşmuş oldu. Böyük Britaniyanın Əfşarlar dövləti ilə qarşılıqlı münasibətlərini ilk növbədə Nadir şahın fəal hərbi-siyasi fəaliyyəti, xüsusən onun Xəzər dənizində hərbi-dəniz donanması yaratmaq cəhdləri kontekstində nəzərdən keçirmək lazımdır. Xəzər dənizində gəmiçiliyin əhəmiyyətini dərk edən Böyük Britaniya, öz ticarət agentlərinin vasitəsiylə Əfşar donanmasının yaradılmasında fəal iştirak etmişdi ki, bu da öz növbəsində Rusiya-Britaniya münasibətlərinə mənfi təsir göstərmişdi. Lakin Nadir şahın qəfil ölümü Əfşarların Xəzərdə güclü hərbi dəniz donanması yaratmaq planlarını başa çatdırmağa imkan vermədi. Bu amil sonralar Azərbaycanın Rusiya İmperiyası tərəfindən işğal edilməsində əhəmiyyətli rol oynadı.

- Məlum olduğu kimi, XVIII əsrin ikinci yarısında Azərbaycan ərazisində siyasi pərakəndəlik hökm sürürdü. Azərbaycan xanlıqları öz müstəqilliklərini qoruyub saxlamaq üçün böyük dövlətlər arasında manevr siyasəti yürüdürdülər. Cənubi Qafqaz və Qacarlar dövlətindəki vəziyyətlə əlaqədar olaraq bu ölkələr Böyük Britaniyanı və Fransanı anti-Rusiya siyasətinin tərkib hissəsi olaraq da cəlb edirdi. Böyük Britaniyanın və Fransanın regionda siyasi və iqtisadi üstünlük uğrunda qarşılıqlı rəqabəti onların Rusiyaya qarşı mübarizəsi ilə paralel gedirdi. XIX əsrin birinci yarısında ingilis diplomatiyasının əsas səyləri Böyük Britaniyanın xarici siyasət kursunun mühüm vəzifələrindən biri olan müstəmləkələrin ələ keçirilməsi və onların istismar edilməsi, eləcə də metropoliyadan şərqə gedən yollarda dayaq məntəqələrinin yaradılması vəzifəsinin yerinə yetirilməsinə yönəlmişdi. Əgər XVIII əsrin əvvəllərində Böyük Britaniya regionda istisnasız olaraq ticarət məqsədləri

güdürdüsə, indi bu maraqlara yeni siyasi və strateji maraqlar da əlavə olmuşdu.

– Rusiya-Qacarlar ziddiyyətlərinin əsas düyün nöqtəsi Cənubi Qafqaz, daha doğrusu Şimali Azərbaycan xanlıqlarının ərazisi idi. Rusiya imperiyasının mövqelərinin güclənməsini istəməyən və Rusiya-Qacarlar ziddiyyətlərindən istifadə etməyə çalışan Böyük Britaniya regionda öz nüfuzunun güclənməsinə can atırdı. XIX əsrin əvvəllərindən etibarən Böyük Britaniya Qacarlar İranında fəal diplomatik və hərbi fəaliyyətə başlamışdı. Bu dövrdə Tehrana və Təbrizə Britaniya hökuməti adından yeddi diplomatik nümayəndəlik, Hindistandakı Britaniya nümayəndəliyindən isə üç missiya göndərilmişdi. Bu missiya və səfirliklərin yekununda isə Qacarlar İranına maddi və hərbi yardım göstərilməsini nəzərdə tutan iqtisadi və siyasi müqavilələr (1801, 1809, 1812 və 1814-cü illər) imzalanmışdı. Nəticədə Böyük Britaniya Qacarlar dövlətində diplomatik fəaliyyətlə məşğul olmaqla yanaşı, silahlı qüvvələrinin yenidən qurulmasında da fəal iştirak etmişdi. Britaniya hökuməti hesab edirdi ki, ingilis hərbi mütəxəssislərinin köməyi ilə yenidən qurulan Qacarlar ordusu, şərqi Hindistan şirkətinin mülklərinin müdafiəsində onlara kömək edə bilər və eyni zamanda Qacarlar İranında Britaniyanın təsir vasitəçisinə çevrilə bilərdi.

– Qacarlar-Osmanlı münasibətlərinin araşdırılması, ələlxüsus Britaniya-Rusiya qarşıdurması kontekstində nəzərdən keçirilməsi də az maraq kəsb etmir, çünki həmin dövrdə onların xarici siyasət kursunu məhz bu amil də müəyyənləşdirirdi. Britaniya hökuməti Hindistandakı hökmranlığı üçün "rus təhlükəsi"nin artmasından təşvişə düşərək Qacarlar kimi, Osmanlı imperiyası ilə münasibətdə də "dövlət bütövlüyünün qorunub saxlanılması" siyasətini yürüdürdü. Beləliklə, özünün Şərq siyasəti çərçivəsində Böyük Britaniya bu dövlətlər arasında onların parçalanmasına gətirib çıxara biləcək münaqişəyə yol verməməyə çalışırdı. Eyni zamanda, Qacarlar hökumətinin Rusiyaya qarşı Osmanlı imperiyası ilə hərbi ittifaq bağlamaq cəhdlərini də öz maraqları üçün təhlükə sayan Britaniya bu cəhdləri ciddi müqavimətlə qarşılayırdı. Britaniya diplomatiyasının 1823-cü ildə Ərzurum müqaviləsinin bağlanmasında rolu, eləcə də İstanbuldakı ingilis səfirinin Osmanlı

imperiyası ilə hərbi müqavilə bağlamaq haqqında Qacarlar hökumətinin təklifinin rədd edilməsi üçün türk hökumətinə göstərdiyi təsir də şübhəsizdir.

– XIX əsrin 20-ci illərindən başlayaraq şərq məsələsinin coğrafi çərçivəsinin genişlənməsi müşahidə olunur, bu məsələyə bir sıra digər beynəlxalq problemlər, o cümlədən Qafqaz problemi də əlavə olunur. Beləliklə, Azərbaycan Böyük Britaniyanın Şərq siyasətinin bir hissəsinə çevrilir. İkinci Rusiya-Qacarlar müharibəsinin başlaması Rusiyanın Hindistandakı təhdidləri ilə bağlı Böyük Britaniyanın qorxularını daha da artırmışdı. Ona görə də hərbi əməliyyatların gedişində Böyük Britaniya hər vəchlə Qacarlar İranını Rusiyanın ona qarşı irəli sürdüyü ərazi güzəştlərini qəbul etməyə çağırırdı. Eyni zamanda Britaniyanın özü Tehran müqaviləsinə (1814) görə üzərinə götürdüyü öhdəlikləri, xüsusən subsidiyaların ödənilməsi və hərbi yardım göstərilməsi ilə bağlı öhdəlikləri yerinə yetirməkdən imtina edirdi.

– Rusiya-Qacarlar müharibələri nəticəsində Azərbaycan xanlıqlarının müstəqilliyinə son qoyuldu və Rusiya imperiyası Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda hökmranlığını bərqərar etməklə Qacarların “Səfəvi irsi”ni öz hakimiyyəti altına qaytarmaq ümidlərini puça çıxardı. Eyni zamanda bu müharibələr və onların nəticəsi olaraq bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri Qacarlar dövlətinin bütövlüyünü qoruyub saxladı Böyük Britaniyanın Rusiyanın Qacarlar İranının ərazisindən keçməklə onun Hindistandakı mülklərinə təhdid yaratmaq qorxusunu müvəqqəti də olsa aradan qaldırdı. Ədirnə sülhünün (1829) əsas yekunu isə XIX əsrin 20-ci illərində şərq böhranı gedişində Avropa dövlətlərinin, dəqiq desək Böyük Britaniyanın Rusiyaya qarşı diplomatik mübarizədə faktiki olaraq məğlubiyyətə uğraması oldu.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Vətən tarixşünaslığında ilk dəfə olaraq XVIII-XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yerinin və rolunun kompleks şəkildə öyrənilməsinə və hərtərəfli işıqlandırılmasına cəhd edilmişdir;
- ilk dəfə olaraq Böyük Britaniyanın araşdırılan dövrdə

Əfşarlar və Qacarlar dövlətləri ilə siyasi və iqtisadi əlaqələrinin ətraflı təhlilinə və öyrənilməsinə cəhd edilmişdir;

- müəllif tərəfindən Rusiya, Böyük Britaniya, Türkiyə və Gürcüstan arxivlərində, müxtəlif elmi qurumların əlyazmaları fondlarında, mərkəzi və yerli kitabxanalarda əvvəllər nəşr olunmamış arxiv, sənəd və narrativ mənbələrin geniş dairəsi aşkar edilərək, elmi dövriyyəyə cəlb edilmişdir. Əldə olunmuş materiallar göstərilən dövrdə Böyük Britaniyanın Azərbaycanda siyasətinin inkişafını keyfiyyətcə yeni səviyyədə izləməyə imkan vermişdir;
- dissertasiya işində müəyyən edilmiş məqsəd və vəzifələrə uyğun olaraq, Böyük Britaniya və süqutu ərəfəsini yaşayan Səfəvilər dövləti arasında siyasi münasibətlərin retrospektiv təhlili verilmiş, Nadir şah Əfşarın diplomatik səfirlikləri, Britaniya imperiyasının Nadir şah Əfşarın hakimiyyəti dövründə siyasəti, o cümlədən Nadir şah tərəfindən Xəzər dənizində britaniyalı mütəxəssislərin köməyi ilə hərbi dəniz donanması qurmaq cəhdləri ətraflı şəkildə nəzərdən keçirilmişdir;
- dissertasiyada Britaniya-Qacarlar münasibətlərinin inkişafında diplomatik missiyaların rolu ilk dəfə geniş və ətraflı təhlil edilmiş, Qacarlar dövləti və Böyük Britaniya arasında ticarət və diplomatik münasibətlərin inkişafında ingilis diplomatiyasının təşəbbüslərinin retrospektiv təhlili verilmiş, Qacarlar qoşunlarının yenidən qurulmasında britaniyalı hərbçilərin rolu göstərilmişdir;
- ilk dəfə olaraq Tiflis müqaviləsinin (1825) bağlanılması prosesi araşdırılmış, habelə Tehran müqaviləsi (1814) üzrə öhdəliklərə baxmayaraq, Böyük Britaniyanın regiondakı duruma müdaxilə etməkdən imtina etməsinin səbəbləri təhlil edilmişdir;
- Azərbaycan tarixşünaslığında ilk dəfə Böyük Britaniyanın Rusiya-Qacarlar müharibələri (1804-1813; 1826-1828) ərəfəsində və gedişində tutduğu mövqe ətraflı təhlil edilmişdir;
- ilk dəfə olaraq Qacarlar dövləti və Azərbaycan xanlıqları ilə münasibətlərində Böyük Britaniyanın siyasi kursu və onun araşdırılan dövrdə regionda beynəlxalq münasibətlərin inkişafına təsiri səciyyələndirilmişdir;
- ilk dəfə olaraq XIX əsrin birinci sülsündə Azərbaycan üçün taleyüklü əhəmiyyət daşımış və Böyük Britaniyanın, Rusiya

imperiyasının, Qacarlar dövlətinin və Osmanlı imperiyanın iştirakı ilə bağlanmış demək olar ki, bütün beynəlxalq müqavilələrin hazırlanması və imzalanması gedişində britaniyalı diplomatların iştirakı ətraflı şəkildə nəzərdən keçirilmişdir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti ilk növbədə** ondan ibarətdir ki, tədqiqat gedişində ortaya qoyulan məsələlərin düzgün işıqlandırılması həm elmi, həm də nəzəri əhəmiyyətə malikdir. İşin nəzəri əsasını tarixçilərin və siyasətçilərin beynəlxalq münasibətlər, regionşünaslıq, iranşünaslıq, qafqazşünaslıq və s. sahələrə həsr edilmiş əsərlərində yer almış konseptual, nəzəri yanaşmalar və nəticələr təşkil edir. Dissertasiyanın elmi nəticələri və ümumiləşdirmələri Britaniya-Qacarlar, Rusiya-Britaniya və Rusiya-Qacarlar münasibətlərinin tarixinə dair nəşrlərdə bəzən rast gəlinən səhvləri və qeyri-dəqiqlikləri müəyyən etməyə və düzəltməyə də imkan vermişdir.

Dissertasiyanın materiallarından və nəticələrindən Azərbaycan, Qafqaz, Rusiya, Böyük Britaniya və İran tarixi üzrə ümumiləşdirici əsərlərin yazılmasında, habelə mühazirələrin və xüsusi kursların təşkil olunmasında, diplom və kurs işlərinin hazırlanmasında istifadə oluna bilər.

Tədqiqatın praktiki əhəmiyyəti onun nəticələrinin və müddəalarının yeniliyi ilə, həmçinin dissertasiyada ilk dəfə istifadə olunan mənbələrlə müəyyən olunur ki, bu da təqdim olunan əsərin Azərbaycan tarixşünaslığını əhəmiyyətli dərəcədə zənginləşdirəcəyinə ümid bəsləməyə imkan verir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun “Beynəlxalq münasibətlər tarixi” şöbəsində yerinə yetirilmişdir və XVIII – XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri və rolu haqqında məsələni araşdırmışdır. Tədqiqatın əsas müddəaları “XIX əsrin ilk qərinəsində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri” adlı monoqrafiyasında (Bakı, 2017, rus dilində), Türkiyə və Rusiyada nəşr olunan kollektiv monoqrafiyalarda (İstanbul, 2016; Moskva, 2016), habelə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrdə öz əksini tapmışdır. Tədqiq

olunan problemin bəzi məsələləri Azərbaycan Respublikasında və xaricdə (Böyük Britaniya, İspaniya, İtaliya, Almaniya, Rusiya, Türkiyə, Özbəkistan, Qazaxıstan və s.) nəşr olunmuş məruzələrdə və elmi nəşrlərdə şərh edilmiş, eləcə də Londonda, Romada, Moskvada, Sankt-Peterburqda, İstanbulda, Krakovda, Münsterdə, Frankfurtda, Varşavada, Yenada, Daşkənddə və s. şəhərlərdə təşkil olunmuş beynəlxalq konfranslarda elmi ictimaiyyətin diqqətinə çatdırılmışdır.

Tədqiqat materiallarından Azərbaycan tarixi ilə bağlı ümumiləşdirici əsərlərin yazılması, habelə universitetlərin tarix fakültələrinin tələbələrinə Vətən tarixi və beynəlxalq münasibətlər tarixinin tədris edilməsi zamanı istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Beynəlxalq münasibətlər tarixi" şöbəsində yerinə yetirilmiş və adı çəkilən şöbənin genişləndirilmiş iclasında dəvət olunmuş mütəxəssislərin iştirakı ilə müzakirə olunaraq, müdafiəyə buraxılması tövsiyə edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya girişdən, dörd fəsildən, on dörd yarımfəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işinin strukturu tədqiqat predmetinin spesifikliyi və metodologiyası, həmçinin qarşıya qoyulan məqsəd və vəzifələrlə şərtlənmişdir. Mətndəki boşluqlar istisna olmaqla, girişin həcmi – 29230, I fəslin həcmi – 85937, II fəslin həcmi – 42674, III fəslin həcmi – 89031, IV fəslin həcmi – 198 210, Nəticə – 20890 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi mətndəki boşluqlar və istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 465972 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın girişində** mövzunun aktuallığı, elmi yeniliyi əsaslandırılmış, tədqiqatın predmeti, obyekti, məqsəd və vəzifələri xülasə edilmiş, coğrafi və xronoloji çərçivələri müəyyən edilmiş, müdafiəyə təqdim olunmuş əsas müddəaları səciyyələndirilmiş, problemin tarixşünaslığı, tədqiqatın metodoloji bazası nəzərdən

keçirilmiş, işin praktiki əhəmiyyəti və aprobasiyası göstərilmişdir.

Dissertasiyanın **“XVIII əsrin birinci yarısında Böyük Britaniyanın Azərbaycana nüfuz etməsi cəhdləri”** adlanan **birinci fəsli** üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə Səfəvilər dövlətinin süqutu ərəfəsində Azərbaycanda beynəlxalq rəqabətin təhlili verilmişdir. Məlum olduğu kimi, XVIII əsrin əvvəllərinə doğru Səfəvilər dövlətinin daxili siyasi durumu, habelə regionda beynəlxalq vəziyyət olduqca gərgin idi. Mühüm strateji-coğrafi mövqeyə malik olan Azərbaycan aparıcı Avropa dövlətlərinin ticarət-iqtisadi mənafelərinin təmas mərkəzi idi, sonuncular regiona yiyələnməklə, özlərinin şərqdəki nüfuz dairəsini genişləndirməyə və Hindistana gedən yolda hakim qüvvəyə çevrilməyə can atırdılar.

Hindistanda qəsbkarlıq fəaliyyətinin başladığı, həmçinin Səfəvi dövlətinin nəzarətindəki ipək bazarı uğrunda inadlı mübarizənin meydana çıxdığı andan etibarən Britaniyanın diqqəti artıq şərqdə cəmlənmişdi. Britaniya hökuməti, eyni zamanda Rusiyanın Xəzər dənizində və Cənubi Qafqazda mövqeyini, onun bu bölgədə diplomatik nailiyyətlərini də diqqətlə izləyirdi. XVIII əsrin əvvəllərinə doğru Osmanlı imperiyası və Rusiya arasında Səfəvilər dövlətində üstünlük uğrunda meydana çıxan rəqabət əsrin sonlarına doğru Qafqazda nüfuz uğrunda açıq qarşıdurmaya çevrilmişdi. Qəndəharda gilzayi əfqan tayfasının üsyanından sonra Səfəvilər dövlətinin düşdüyü fəlakətli vəziyyətdən və ardından başlamış ara müharibələrindən yararlanan Rusiya və Osmanlı imperiyaları Azərbaycanda siyasətlərini fəallaşdırmağa başlamışdılar.

1724-cü ilin əvvəlinə doğru Rusiya və Osmanlı imperiyalarının regiondakı mövqeyi açıq-aşkar Azərbaycanın işğalı və bölüşdürül-məsi yolu ilə cızılmışdı. I Pyotrun ölümündən (1725) sonra Rusiya-nın Azərbaycanda mövqeyinin xeyli zəifləməsi, habelə Şah Təhmasibin İstanbul müqaviləsini (1724) tanımaqdan boyun qaçırması Rusiyanı Azərbaycandan tamamilə sıxışdırıb çıxarmağa can atan Osmanlı imperiyasının bölgədə hərbi fəallığının güclənməsinə gətirib çıxarmışdı. Böyük Britaniyanın və digər Avropa dövlətlərinin dəstəyi, həmçinin Səfəvi dövlətində yaranmış vəziyyət Osmanlı dövlətinin Qafqazdakı hərbi fəaliyyətinin genişlənməsinə şərait yaradırdı. Lakin gücdən düşmüş Səfəvi dövlətinin xarici qüvvələrə dinməz-söyləməz itaət

göstərəcəyinə dair ehtimallar özünü doğrultmadı. Əfqan, Osmanlı və Rusiya işğallarının ağır nəticələri Əfşarlar soyundan olan istedadlı Azərbaycan türk sərkərdəsi Nadirin rəhbərliyi altında istilaçılara qarşı azadlıq mübarizəsinin yüksəlişinə təkan verdi. Belə bir ağır şəraitdə Nadir Əfşar ilk öncə ölkəni əfqan qoşunlarından azad etdi, sonra isə Rusiyanı (1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələri ilə) və Osmanlı hökumətini (1736-cı il müqaviləsi ilə) Cənubi Qafqazda ələ keçirdikləri bütün torpaqlardan imtina etməyə məcbur etdi.

İkinci yarımfəsildə Azərbaycan türk Əfşarlar şah sülaləsinin banisi Nadir şah Əfşarın (1736-1747) imperiyası ilə Böyük Britaniyanın qarşılıqlı münasibətləri nəzərdən keçirilmişdir. 1740-cı ilə doğru Nadir şah öz qüdrətinin zirvəsinə çatmışdı; artıq bu zamana doğru bütün keçmiş Səfəvi mülklərindən Rusiya və Osmanlı orduları qovulmuş, Xivə və Buxara fəth edilmiş, əfqanlara yardım göstərməkdə ittiham olunan Böyük Moğol imperatorunun qoşunları darmadağın edilmiş və Moğolların paytaxtı Dehli şəhəri ələ keçirilmişdi.

Böyük Britaniyanın Əfşarlar dövləti ilə qarşılıqlı münasibətləri ilk növbədə Nadir şahın aktiv hərbi-siyasi fəaliyyəti, o cümlədən onun Xəzərdə hərbi dəniz donanması yaratmaq cəhdləri fonunda bərqərar olmuşdu. Məlum olduğu kimi, Xəzər dənizi nəinki Avropanı Əfşarlar dövləti ilə, habelə Hindistanla bağlayan tranzit su arteriyası idi. Rusiya və Osmanlı imperiyalarından əlavə, ipək ticarətinə əksər Avropa dövlətləri də maraq göstərirdi. Bu baxımdan Böyük Britaniya daha böyük cidd-cəhdlə və fəal çıxış edirdi, o, hələ Səfəvilər dövründən Xəzər dənizi vasitəsi ilə ticarətə maraq nümayiş etdirmiş və həmin dövrdə Britaniyanın müvafiq ticarət şirkətləri yaradılmışdı. Bu şirkətlər Rusiya ilə əlverişli ticarət müqavilələrinin imzalanmasını təşviq edirdilər. Böyük Britaniyanı və Rusiyanı Xəzər dənizi hövzəsinə cəlb edən səbəblər ilk növbədə əlverişli dəniz limanları, şəhərlərdəki qızğın beynəlxalq ticarət, Azərbaycanın zəngin xammal qaynaqları və mühüm strateji mövqeyi ilə əlaqədar idi. Böyük Britaniya üçün öz planlarını həyata keçirməkdən ötrü ilk növbədə Xəzər dənizində donanmaya malik olmaq lazım idi. Eyni zamanda Xəzər donanmasının əhəmiyyətini yaxşı anlayan Nadir şah da Xəzər regionunda hakimiyyətini möhkəmləndirməyə yönəlmişdi və uzaqgörən hərbi-siyasi və iqtisadi məqsədlər güdürdü.

Bu dövrdə sadəcə Rusiya Xəzər dənizində donanmaya malik idi. Adı çəkilən regionda möhkəmlənməyə çalışan I Pyotr Xəzərdə kifayət qədər güclü donanma qurmuşdu. Rusiya hökuməti gözəl anlayırdı ki, Əfşarlar dövlətinin güclü Xəzər donanması meydana çıxarsa, o, Rusiyanın Xəzəryanı bölgədəki istilalarını açıq-aşkar təhlükə altına alacaq. Öz növbəsində Nadir şah da Rusiyanın Xəzər dənizindəki ticarət və hərbi inhisarından narazı idi. Dağlılara qarşı hərbi əməliyyatlar gedişində qoşunların ərzaqla təchizatı üçün donanma yaradılması zərurəti ilə yanaşı, Nadir şahdan ötrü Rusiya ilə Xəzərdə ticarət və hökmranlığı bölüşdürmək cəhdi əlavə motiv idi. Böyük sərkərdəlik istedadı olan Nadir şah çox yaxşı başa düşürdü ki, Xəzər dənizində hökmranlığı qazanmaq mühüm strateji əhəmiyyətə malikdir. Xəzər donanmasını yaradarkən, o, birinci növbədə öz dövlətinin şimal sərhədlərinin təhlükəsizliyinə nail olacaqdı, ikincisi isə Xəzəryanı bölgədə hərbi əməliyyatlar başlayacağı təqdirdə, o cümlədən Rusiya qoşunlarının müdaxiləsi halında öz qoşunlarının ərzaqla etibarlı təchizatını təmin etmiş olacaqdı. Beləliklə, Nadir şahı Xəzərdə donanma yaratmağa sövq edən başlıca səbəb Rusiyanın bölgədəki hərbi mövqelərini zəiflətmək cəhdi idi.

Ümumiyyətlə, Nadir şah Xəzərdə öz hərbi dəniz donanmasına malik olmaq zərurətini anlayan ilk azərbaycanlı hökmdarlardan biri idi. Üç ildən az bir müddət ərzində (1743-1745) ingilislər bir neçə kiçik və iki böyük gəmi inşa etmişdilər. 1745-ci ildə suya endirilməyə hazır iki böyük gəmilərdən hər biri o dövrdə Xəzər dənizində üzən hər hansı Rusiya gəmisindən üstün idi.

Xəzər dənizində güclü, yaxşı silahlanmış donanma Rusiya donanmasına və bütövlükdə Rusiyanın Xəzərdə mövqelərinə real təhlükə təşkil edirdi. Ona görə də 1743-cü ildə Eltonun gəmiqayırma sahəsindəki fəaliyyəti haqqında məlumatlar daxil olur - olmaz Rusiya hökuməti Əfşar və Britaniya hökumətlərinə bu cür fəaliyyətə qarşı öz etirazını bəyan etdi. Rusiya hökumətinin narazılığı 1734-cü il ingilis-rus ticarət müqaviləsinin 8-ci maddəsinin qüvvədən düşməsinə gətirib çıxardı; həmin maddəyə görə, britaniyalı tacirlər Xəzər dənizi vasitəsi ilə Nadir şah imperiyası ilə tranzit ticarət hüququna malik idilər. 1746-cı ilin noyabrında rus imperatriçəsi Xəzərdə Britaniya ticarətini tamamilə qadağan edən fərman verdi. Bundan əlavə, Nadir şahın

ölümündən (1747) sonra Əfşarlar dövlətində yaranmış iğtişaşlardan yubanmadan yararlanan Rusiya, rəqiblərinin Xəzər donanmasını məhv etmək qərarına gəldi. Rusiyanın Xarici İşlər Kollegiyası ingilis Elton tərəfindən başladılmış gəmiqayırmanın "məhv edilməsi" haqqında qətnamə qəbul etdi. Növbəti il isə 2 iri freqat rus dənizçiləri tərəfindən yandırıldı. Bu surətlə Xəzərdə qonşu dövlət tərəfindən hərbi dəniz donanmasının yaradılmasına qətiyyən yol verməməyə çalışan Rusiya Xəzər gəmiqayırmasını tamamilə məhv etdi.

Üçüncü yarımfəsildə XVIII əsrin birinci yarısında Britaniya tacirlərinin Azərbaycan vasitəsi ilə tranzit ticarətinin inkişafı məsələləri nəzərdən keçirilmişdir. Qeyd edilmişdir ki, XVII əsrin ikinci yarısından etibarən Səfəvilər dövlətində iqtisadi və siyasi tənəzzülün ilk əlamətləri görünməyə başlamışdı. XVII-XVIII əsrlərdə Səfəvilər dövləti vasitəsi ilə tranzit ticarəti daha erkən dövrlərdə olduğu əhəmiyyətə artıq malik deyildi. Bu, şah xəzinəsinin gəlirlərinin azalmasına və ölkənin iqtisadi durumunun pisləşməsinə gətirib çıxarmışdı. Avropada XVIII əsrdə müşahidə olunan nisbi firavanlıq və həyat səviyyəsinin yüksəlməsi bu qitənin dünyanın digər bölgələri ilə, o cümlədən Xəzəryanı ölkələrlə ticarətinin artmasına səbəb olmuşdu. Avropa şirkətlərinin birbaşa iştirakı demək olar ki, tamamilə dəniz daşımalarında cəmləşmişdi. XVIII əsrin birinci yarısında Azərbaycanda ümumi siyasi vəziyyət ticarətin inkişafına mane olurdu. Siyasi hakimiyyətin dayanıqsızlığı, real bir mərkəzləşdirilmiş idarəçiliyin olmaması, iqtisadi tənəzzül Azərbaycanın karvan yollarında quldurluq və qarətçilik hallarının çoxalmasına gətirib çıxarmışdı. Avropanı Asiya ilə birləşdirən yolların üstündə yerləşən Azərbaycan  həm də Rusiyanın şərq ölkələrinə çıxış üçün zəruri olan dəniz limanlarına malik idi. Azərbaycanın Osmanlı imperiyası tərəfindən ələ keçirilməsi Rusiyanın bir çox şərq ölkəsinə yolunu bağlayar, onu Qafqazla və Səfəvi dövləti ilə əlaqələndirən başlıca kommunikasiya xəttindən məhrum qoyurdu.

Rusiya və Osmanlı imperiyalarından əlavə, Avropa dövlətləri də ipək ticarətində maraqlı idilər. Səfəvilər dövlətindən Xəzər dənizi, Volqa və Şimali Dvina vasitəsilə Arxangelsk şəhərinədək aramsız su yolu sayəsində ipəyin Rusiya ərazisindən tranziti böyük bir mənfəət demək idi. İsfahanda təsis olunmuş Britaniya və Hollandiya ticarət nümayəndəlikləri ipək almaq, onu Hələb və İzmir vasitəsilə Avropaya

göndərmək üçün Şamaxıya öz agentlərini yollayırdılar. Fransız tacirləri öz gəmilərilə İran körfəzində üzmək və Səfəvilər dövləti ilə ticarət aparmaq hüququna malik idilər. Avropalılar həmçinin Xəzəryanı bölgələrə də sızmağa çalışırdılar ki, bu da Rusiya tərəfindən ehtiyatla qarşılanırdı. XVIII əsrin birinci yarısında Britaniyanın ticarət kapitalı iki istiqamətdən – Həştərxan vasitəsilə Xəzər dənizi və İran körfəzi ilə Səfəvilər dövlətinə daxil olurdu. Bu tranzit ticarəti avropalılar üçün ən əhəmiyyətlisi və mənfəətlisi idi. Onların ticarət-siyasi dairələrinin Həştərxan vasitəsilə Azərbaycanın Xəzəryanı bölgələrinə giriş hüququnun verilməsi haqqında Rusiya dövləti qarşısında daim vəsatət qaldırmaları da buna dəlalət edir. Britaniya özü üçün sərfəli müqavilənin bağlanılması üçün az səy sərf etmirdi.

XVIII əsrin 20-ci illərinin sonlarında Böyük Britaniya və Rusiyanın siyasi yaxınlaşması nəticəsində Britaniya Rusiyadan böyük ticarət imtiyazları əldə etdi. Bu imtiyazlar 1734-cü il ingilis-rus müqaviləsində təsbit olundu. Müqavilədə səkkizinci maddə mühüm yer tuturdu; bu maddəyə əsasən, britaniyalı tacirlər Rusiya dövlətinin ərazisi vasitəsi ilə, tranzitlə malların dəyərləndirmə məbləğindən 3% rüsum ödəməklə Səfəvilər dövləti ilə ticarət hüququ əldə edirdilər. 1740-cı ildə C.Elton Nadir şahın böyük oğlu – Rzaqulu Mirzədən "Rusiya" şirkətinin tacirləri üçün imtiyazlı fərman almışdı. 1740-cı il fərmanının verilməsindən sonra britaniyalılar Rusiya ərazisi üzərindən Əfşarlar dövləti ilə tranzit ticarət hüququndan fəal surətdə yararlanmağa başladılar.

Britaniya-Əfşarlar ticarətinin inkişafı rus-ingilis münasibətlərinin gedişinə də müəyyən təsir göstərdi. Yuxarıda da qeyd edildiyi kimi, 1746-cı ilin noyabrında Rusiya imperatriçəsi Xəzərdə Britaniya ticarətini tamamilə yasaqlayan fərman verdi. 1749-1779-cu illərdə Britaniya Rusiya ərazisi vasitəsilə Xəzər ticarətindən tamamilə kənarlaşdırılsa da, İran körfəzində yenə də üstün mövqe tuturdu. Xəzər hövzəsində Britaniya ticarətinin dayandırılmasının əsas səbəbi olaraq Nadir şahın Xəzər dənizində öz donanmasını yaratmaq cəhdləri, bu işdə ona C.Elton tərəfindən dəstək göstərilməsi və Rusiya hökumətinin bu fəaliyyətdən narazılığı hesab edilməlidir. Belə siyasət Rusiyanın Xəzərdə öz hakim mövqelərini qoruyub saxlamağa yönəlmişdi.

Şübhəsizdir ki, Rusiya Xəzərdə hansısa başqa dövlətin

donanmaya malik olmasına qətiyyətlə mane olmağa çalışırdı, Britaniya imperiyasının isə XVIII əsrin birinci yarısında Azərbaycanda siyasətinin başlıca istiqaməti siyasi nüfuzdan daha çox iqtisadi-ticarət nüfuzun bərqərar edilməsi idi. Böyük Britaniyanın regionda daha fəal siyasətinə ilk növbədə Rusiya əngəl yaradırdı, XVIII əsr boyu Rusiyanın bütün siyasəti Qafqazda Avropa ölkələrinin nüfuzunun bərqərar olmasına mane olmağa yönəldilmişdi. Digər tərəfdən, Britaniyanın adı çəkilən bölgədən coğrafi olaraq uzaq olması və bu səbəblə bölgədəki hadisələrə fəal surətdə təsir göstərmək imkanından məhrum qalması da önəmli faktorlardan idi.

Artıq XVIII əsrin sonlarına doğru qüdrətli dövlətlərə çevrilmiş Rusiya və Böyük Britaniya Yaxın Şərq regionunda siyasi və ticarət üstünlüyü uğrunda mübarizə aparmağa başlayırlar.

**"XVIII əsrin ikinci yarısında Azərbaycanda beynəlxalq rəqabət"** adlı **ikinci fəsil** iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə Azərbaycan xanlıqlarının geosiyasi durumu və Böyük Britaniyanın Şərq siyasəti araşdırılır. Məlum olduğu kimi, XVIII əsrin ikinci yarısı – Cənubi Qafqazın tarixində dönüş dövrü olmuşdur. 1747-ci ildə Nadir şahın ölümündən sonra Cənubi Qafqazda Əfşarların hakimiyyəti süquta uğradı. Azərbaycan ərazisində müstəqil dövlətlər – xanlıqlar meydana gəldi ki, onların yaranma, yüksəliş və süqutu dövrü XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci rübünü əhatə edir. Xeyli möhkəmlənmiş Rusiya məhz bu dövrdə Qafqazda və Azərbaycanda ərazi istilaları məqsədilə daha fəal siyasət yürütməyə başlayır. Rusiyanın marağı əsasən Qafqazdan Osmanlı imperiyasına və Qacarlar dövlətinə qarşı hərbi əməliyyatlar üçün bir savaş meydanı, həmçinin Asiya ilə ticarəti genişləndirmək üçün ticarət mərkəzi kimi yararlanmaq üzərində cəmləşmişdi.

Araşdırılan dövrdə Britaniya-Rusiya münasibətlərinə nəzər salındıqda, məlum olur ki, ümumilikdə hər iki ölkə qarşılıqlı əməkdaşlıqda maraqlı idi. XVIII əsrdə Rusiya və Böyük Britaniya arasında üç ticarət müqaviləsi (1734, 1766 və 1793-cü illərdə) imzalanmışdı. Kommersiya münasibətləri siyasi və hərbi ittifaqlarla möhkəmləndirilmişdi. Rusiya və Böyük Britaniya "Avstriya irsi" uğrunda müharibə zamanı (1740-1748-ci illər) müttəfiq kimi çıxış etmişdilər. Bundan əlavə, XVIII əsrin ortalarına doğru Rusiya və

Britaniya siyasi elitaları Rusiya ilə Böyük Britaniyanın "təbii müttəfiq" olması fikrini irəli sürürdülər.

Qacarların hakimiyyətə gəldiyi bir vaxtda Britaniyanın Ost-Hind şirkəti demək olar ki, bütün Hindistanda öz ağalığını qurmuşdu. Britaniyalılar üçün İran körfəzi təkcə strateji cəhətdən mühüm ticarət bazası kimi deyil, həmçinin təhlükəsizlik nöqteyi-nəzərindən də əhəmiyyət kəsb edirdi. Adı çəkilən dövrdə Böyük Britaniyanın Şərq siyasəti iki əsas məsələ ətrafında cəmlənmişdi: Britaniyanın Hindistandakı mülkləri üçün Fransa təhlükəsi və Qacarlar dövləti ilə Cənubi Qafqazda Rusiya təhlükəsi. Birinci məsələ Böyük Britaniyanın Qacarlar dövlətinə münasibətdə regionda diplomatiyasını formalaşdırmışdı, ikincisi isə əks təsir göstərmək zərurətindən çıxış edərək, Qacarların xarici siyasətinin əsas motivini təşkil edirdi. Böyük Britaniya Azərbaycanda daha çox iqtisadi maraqlardan çıxış edirdi. O, bölgədə açıq münaqişəyə girmədən, diplomatik manevrlər yolu ilə öz ticarət şirkətlərinin maraqlarını dəstəkləyirdi.

İkinci yarımfəsil Qacarlar xanədanının Azərbaycan torpaqları uğrunda mübarizəsinin və Böyük Britaniyanın Azərbaycanda siyasətinin təhlilinə həsr edilmişdir. Kərim xan Zəndin ölümündən sonra (1779) şah taxtı uğrunda mübarizəyə Azərbaycan türk Qacar qəbiləsinin başçısı Ağa Məhəmməd xan da qatılmışdır. O, 1794-cü ildə bütün İranda və Cənubi Azərbaycanda öz hakimiyyətini bərqərar etməyə müvəffəq olmuşdur. Beləliklə, Zəndlərin qısa müddətli idarəçiliyindən sonra yenidən hakimiyyətə Qızılbaş türk sülaləsi gəlmişdir. Səfəvilərin hüquqi varisi kimi çıxış edən Qacarlar dövləti Səfəvilər dövlətinin sərhədlərini bərpa etməyə çalışırdı. Ağa Məhəmməd xan Cənubi Qafqaz torpaqlarının birləşdirilməsinə böyük əhəmiyyət verirdi. 1795-ci ildə Ağa Məhəmməd xan öz qoşunlarını Qafqaza göndərdi. Nəticədə Cənubi Qafqazın bütün dövlətləri, Kartli-Kaxetiya çarlığı, Qarabağ və Lənkəran xanlıqları istisna olmaqla, Qacarlar xanədanına öz itaətini bildirdi. Səfəvilərin sərhədlərini bərpa etməyə çalışan Ağa Məhəmməd xan qışda Muğan düzənliyində düşərgə saldı. O, Nadir şah Əfşar kimi, 1796-cı ilin martında burada tacqoyma mərasimi keçirdi.

Rusiyaya gəlincə, qeyd etməliyik ki, 1795-ci ildə Ağa Məhəmməd xanın Cənubi Qafqaza yürüşündən sonra bu bölgə Rusiya siyasətində yenidən prioritet istiqamətlərdən birinə çevrildi. General

V.Zubovun 1796-cı ildə yürüşü nəticəsində Rusiya qoşunları Dərbəndi və Bakını, daha sonra isə Salyanı, Lənkəranı, Şamaxını, Qubanı və Gəncəni tutdular. Lakin tezliklə yürüş dayandırıldı, çünki 1796-cı ilin noyabrında II Yekaterina vəfat etdi. Onun yerinə Rusiya taxtına çıxmış oğlu I Pavelin əmri ilə rus qoşunları Şimali Azərbaycandan geri çağırıldı.

Bu arada Rusiya qoşunlarının getməsindən istifadə edən Ağa Məhəmməd şah 1797-ci ildə Qarabağlı İbrahim Xəlil xanı tabe etdirmək və Şuşanı ələ keçirmək, başqa sözlə desək, əvvəlki mərhələdə müvəffəq olmadıqlarını başa çatdırmaq məqsədi ilə Cənubi Qafqazda yeni hücuma başladı. 1797-ci ilin iyununda Ağa Məhəmməd şah Şuşanı ələ keçirdi. O, burada üç gün keçirdi, lakin gözlənilmədən saray sui-qəsdi nəticəsində öldürüldü. Onun ölümü ilə Qacarlar dövləti özünün birinci və sonuncu güclü siyasi xadimini itirdi. Ağa Məhəmməd şah Qacarın öldürülməsindən sonra taxta Qacarlar xanədanının vəliəhdi Fətəli xan çıxdı. Baxmayaraq ki, Fətəli şah rəsmən taxta 1797-ci ildə çıxmışdı, Qacarlar taxtında qəti şəkildə qərarlaşmaq üçün faktiki olaraq ona 1801-ci ilədək öz əleyhdarlarına qarşı mübarizə aparmaq lazım gəldi.

**“1804-1813-cü illərdə birinci Rusiya-Qacarlar müharibəsi gedişində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycan”** adlanan **üçüncü fəsil** dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə XIX əsrin başlanğıcında beynəlxalq vəziyyət və Qacarlar diplomatiyası nəzərdən keçirilmişdir. XVIII-XIX əsrlərin hüdudunda Yaxın Şərq regionunda mahiyyət etibarilə bəzi dəyişikliklər baş verdi ki, bu da adı çəkilən regionda həyatın bütün sahələrinə təsir göstərdi. Yaxın Şərq regionunda baş verən dəyişikliklər ilk növbədə Avropa dövlətlərinin şərqdə ekspansiyasının artması və şərq ölkələrinin qlobal geosiyasi proseslərinin məhvərinə daxil olması ilə bağlı idi. Müsəlman şərqində əsas qüvvələr isə Osmanlı imperiyası və Qacarlar dövləti idi.

Eyni zamanda bu dövrdə Avropa dövlətlərinin Qacar dövlətində hərbi-siyasi və iqtisadi təzyiqi gücləndi. Avropa ölkələrinin ekspansiyası Qacarlar dövlətinin xarici siyasətinin yeni prinsiplərinin işlənib hazırlanmasına yardım etdi. Fətəli şah böyük Avropa siyasətinin dolanbaclarına tam hakim deyildi, lakin işin mahiyyətini ayırd etmək üçün o, yetərincə ağıllı idi. İngilislərin və fransızların Qacarlar dövlətində maraqları var idi, belə ki, birincilər üçün bu dövlət

Hindistanın müdafiəsi üçün, ikincilər üçün isə həmin torpaqlara hücum etmək üçün gərəkli idi. Qacarlar dövləti üçün isə onun diplomatik və ya hərbi yolla bütün Cənubi Qafqaz üzərində nüfuzunu bərqərar etməyə yardımçı ola biləcək müttəfiqə ehtiyac var idi. Ona görə də Qacarlar hökuməti Rusiya ilə mübarizədə Avropa dövlətlərinin yardımından yararlanmaq üçün bu dövlətlər arasında balanslaşdırma siyasətini seçmişdi. Lakin Fətəli şah, düşmənçilik edən dövlətlər arasında balanslaşdırma strategiyasının effektivliyinə, həmçinin London və Paris ilə ittifaqların etibarlılığına lazım olduğundan çox güvənmiş, öz hərbi potensialını dəyərləndirərkən də mübaliğəyə yol vermişdi.

Cənubi Qafqaz və Qacarlar dövlətindəki vəziyyət dünya ağalığı uğrunda rəqabət aparan, bu regionu özünün şərq, o cümlədən Rusiya əleyhinə siyasətinin məhvərinə çəkməyə çalışan Böyük Britaniyanın və Fransanın diqqət mərkəzində idi. Böyük Britaniyanın və Fransanın bu regionda siyasi və iqtisadi üstünlük uğrunda qarşılıqlı rəqabəti bu dövlətlərin Rusiyaya qarşı mübarizəsi ilə paralel həyata keçirilirdi. 1801-ci ildə imperator I Aleksandrın Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında manifesti dərc olundu. Qacarlar dövləti Cənubi Qafqazda vəziyyətin inkişafını böyük bir gərginliklə izləyirdi.

Şərqi Gürcüstanı bir savaş meydanı kimi istifadə edən Rusiya hökuməti Cənubi Qafqazdakı Azərbaycan xanlıqlarına münasibətdə öz qəsbkar planlarının həyata keçirilməsinə başladı. 1804-cü ilin yanvarında general P.Sisianovun Gəncə xanlığına hücumu bütövlükdə Azərbaycanı və Cənubi Qafqazı öz maraq dairəsi hesab edən Qacarlar dövləti tərəfindən narazılıqla qarşılandı. Rusiya komandanlığının Cənubi Qafqazdan öz qoşunlarını çıxarmaqdan imtina etməsi isə 1804-cü ilin iyununda birinci Rusiya-Qacarlar müharibəsinin başlanmasına səbəb oldu. Bu yarımfəsildə Qacarlar dövlətinin diplomatiya məsələlərinə xüsusi diqqət yetirilmişdir. Qeyd edilmişdir ki, Qacarlar həm hərbi, həm də diplomatik cəhətdən Avropa dövlətlərindən geri qalırdı ki, bu da Qacarlar dövlətində Britaniyanın hərbi və diplomatik nüfuzunun güclənməsində böyük amil olmuşdu.

İkinci yarımfəsildə Britaniya diplomatik missiyalarının Qacarlar dövlətində fəaliyyəti məsələləri ətraflı şəkildə nəzərdən keçirilmişdir. Bu regionun dövlətləri Avropa tərəfindən diplomatik və hərbi

mübarizədə potensial müttəfiq və rəqib olaraq görülməyə başlanmışdı. XVIII əsrin sonu – XIX əsrin əvvəllərindən etibarən Qacarlar dövləti aparıcı Avropa dövlətlərinin siyasi və diplomatik mübarizə meydanına çevrilmişdi.

XIX əsrin birinci yarısında Böyük Britaniyanın Şərq siyasəti başlıca olaraq Qacarlar dövlətində iqtisadi və siyasi ağalığa nail olmaq, Yaxın Şərqdə ekspansiya üçün onun hərbi-strateji meydançaya çevrilməsi cəhdləri üzərində cəmlənmişdi. Bu planlar gerçəkləşdikcə Böyük Britaniyanın Şərq siyasəti Qafqazda və Mərkəzi Asiyada möhkəmlənməyə çalışan Rusiyanın xarici siyasətinin cənub istiqaməti ilə toqquşurdu. Eyni zamanda qeyd etmək lazımdır ki, Böyük Britaniyanın Qacarlar dövlətində diplomatik və strateji maraqları ilk başlarda Rusiyadan daha çox Fransa təhlükəsindən doğmuşdu. Fransanın Yaxın Şərqdəki hərbi fəaliyyətindən, ələlxüsus da fransızların 1798-ci ildə Misirə müdaxiləsindən qorxuya düşən Britaniya hökuməti Hindistandakı maraqları üçün ehtiyatlanırdı. Fransaya qarşı çıxmaq məqsədi ilə Britaniya da özünün şərq siyasətini fəallaşdırdırmışdı.

XIX əsrin birinci rübü ərzində Qacar sarayına Britaniya hökuməti adından yeddi diplomatik səfirlik, eləcə də Hindistandakı Britaniya təmsilçiliyi adından kapitan C.Malkolmun başçılığı ilə üç missiya göndərilmişdi. Bu missiyaların nəticəsində Qacarlar dövlətinə maddi və hərbi dəstək göstərilməsini nəzərdə tutan iqtisadi və siyasi müqavilələr imzalanmışdı. Lakin Rusiya-Qacarlar müharibələri gedişində imzalanmış çoxsaylı müqavilələrlə Qacarlar dövlətinə yardım edəcəyinə zəmanət verən Britaniya Rusiya ilə müharibə olacağı təqdirdə şaha bilavasitə hərbi yardım göstərməyi nəzərdə tutmamışdı. Britaniyanın bu cür davranışı belə bir məqamla bağlı idi ki, o, Qacarlar dövlətini bərabərhüquqlu tərəfdaş kimi görmürdü və bu müqavilələr Böyük Britaniya üçün zəruri məqamda onun regiondakı siyasi duruma əhəmiyyətli dərəcədə təsir imkanlarını təmin etməyə yönəldilmişdi. Böyük Britaniyanın regionda Şərq siyasəti Avropa siyasətindən də birbaşa asılı idi. Əlbəttə Avropa siyasəti hər zaman prioritet idi və Britaniya hökumətinin regionda yürütdüyü siyasətə təsir göstərirdi.

Üçüncü yarımfəsildə Qacarlar ordusundakı islahatlarda Britaniyanın hərbi mütəxəssislərinin rolu nəzərdən keçirilmişdir. Bu dövrdə Qacarlar ordusu qeyri-nizami süvarilərdən ibarət idi ki, onun da

özəyini müxtəlif türk köçəri tayfalarının qoşunları təşkil edirdi. Ordu müasir döyüş taktikasına və düzənə malik deyildi. Rusiya-Qacarlar müharibəsi gedişində rus qoşunları ilə elə ilk toqquşmalar bu ordunun döyüş yetərsizliyini üzə çıxardı. XIX əsrin əvvəllərində nizami Qacar ordusunun formalaşması xarici qüvvələrin yardımı ilə baş verirdi və bir çox hallarda Qərb dövlətlərinin Yaxın Şərqdəki rəqabəti ilə müəyyən olunurdu. Sərhədyanı türk paşalıqları, əfqan torpaqları, həmçinin şərqi Gürcüstanı və Cənubi Qafqazdakı Azərbaycan xanlıqlarını şahın hakimiyyəti altına qaytarmaq üçün şahzadə Abbas Mirzənin güclü, modernləşmiş orduya ehtiyacı var idi. Müasir texnologiyaların tətbiqi və hərbi qüvvələrin yenidən təşkili üçün ölkəyə fransız və britaniyalı hərbi mütəxəssislər dəvət olundular. Beləliklə, Qacarlar dövlətində hərbi qüvvələrin təşkilinin yeni sistemi – *nizami-cədid* təsis olundu, bu, qismən Avropa nümunəsində modernləşdirilmiş hərbi qüvvələr idi.

XIX əsrin birinci rübü ərzində Böyük Britaniya və Qacarlar hökuməti arasında imzalanmış müqavilələrin mühüm maddələrindən biri də Qacar qoşunlarının təlimi, onların yenidən təşkili və təchizi idi. Böyük Britaniya və Qacarlar dövləti arasında hərbi sahədə əməkdaşlıq bu iki dövlətin münasibətlərinin mühüm tərkib hissələrindən biri idi. Faktiki olaraq çoxsaylı Britaniya missiyaları və səfirliklərinin fəaliyyəti gedişində hərbi yardım göstərilməsi məsələsi danışıqlar zamanı meydana çıxan ən mühüm məsələlərdən idi. Bunu Böyük Britaniyanın Qacarlar dövlətinə göndərdiyi iri miqyaslı missiyalar və hərbi maliyyə yardımları da sübut edir.

Böyük Britaniyanın bu siyasəti, yəni Qacarlara öz hərbi qüvvələrini yenidən qurmaqda kömək göstərməsi əvvəla rusların Cənubi Qafqaza nüfuz etməsinin qarşısını almaq cəhdlərindən irəli gəlirdi. Britaniyalı siyasətçilərin təxminlərinə görə, modernləşmiş Qacar ordusu Ost-Hind şirkətinin mülklərinin müdafiəsində Britaniyaya yardımçı ola bilərdi. Bu ordu həm də Qacarlar dövlətində Britaniya siyasətini yürüdən bir qüvvə olacaqdı. Lakin britaniyalı hərbi mütəxəssislərin Qacar ordusundakı islahatları gözlənilən nəticəni vermədi və yarımçıq qaldı. Britaniyanın yardımı Qacarlar dövlətini hərbi məğlubiyyətlərdən xilas edə bilmədi. Bunun başlıca səbəbi isə Qacarlar dövlətinin ictimai-iqtisadi və siyasi inkişafının xeyli dərəcədə ləng getməsi, habelə Qacarların hərbi təşkilatının geriliyi idi. Rusiya

sosial-iqtisadi inkişaf etibarilə daha yüksək pillədə dururdu, ordusu isə bəhs olunan dövrün ən mütəşəkkil ordularından hesab edilirdi.

Dördüncü yarımfəsildə Gülüstan müqaviləsinin (1813) bağlanılması prosesi və Azərbaycan torpaqlarının bölüşdürülməsi ətrafında Qacarlar dövləti ilə Rusiya imperiyasının qarşılıqlı münasibətləri məsələləri araşdırılır. Napoleonun darmadağın edilməsi ilə beynəlxalq vəziyyət köklü surətdə dəyişmişdi. Rusiya və Böyük Britaniya arasında fikir ayrılıqlarının müvəqqəti olaraq aradan qaldırılması, habelə 1812-ci ildə Osmanlı imperiyası ilə Buxarest sülh müqaviləsinin bağlanması Rusiyaya öz başlıca qüvvələrini Cənubi Qafqazda cəmləşdirməyə imkan vermişdi. Fransızların Rusiyaya yürüşü isə ümumi düşmənə qarşı mübarizədə Böyük Britaniya ilə Rusiyanı yaxınlaşdırmışdı. Bu səbəbdən Böyük Britaniya Qacar ordusunda fəaliyyətdə olan britaniyalı zabitləri geri çağırmış və bu barədə rus komandanlığını məlumatlandırmışdı.

Öz növbəsində əsas müttəfiqindən məhrum qalmış Qacarlar dövləti də Rusiya imperiyası ilə 12 oktyabr 1813-cü ildə bağlanmış Gülüstan sülh müqaviləsinin şərtləri ilə razılaşmaq məcburiyyətində qaldı. Müqaviləyə görə, Rusiya İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Cənubi Qafqazın böyük hissəsini rəsmi olaraq ələ keçirirdi. Gülüstan sülh müqaviləsi Böyük Britaniyanın Qacar sarayında səfiri və səlahiyyətli naziri H.Ouslinin vasitəçiliyi ilə bağlanmışdı. Məhz H.Ousli Gülüstan sülhünün əsas prinsiplərini müəyyən etmişdi və onların da içərisində təməl prinsip – *status-quo ad praesentem,* yəni sərhədlərin işğal xətti üzrə təsbiti idi. Bununla da mübahisəli ərazi məsələlərinin dəqiqləşdirilməsi sonrakı komissiyaların fəaliyyətinə buraxıldı. Sonralar bu, Rusiya və Qacarlar dövləti arasında ərazi məsələlərinə dair uzun-uzadı fikir ayrılıqlarına gətirib çıxardı.

Mübahisəli məsələləri həll etmək üçün 1816-cı ilin iyunun 29-da əlahiddə Gürcüstan korpusunun komandiri, Gürcüstanda canişin, Həştərxan və Qafqaz quberniyalarında mülki işlər üzrə baş idarəçi general A.P.Yermolov Qacar dövlətinə fövqəladə və səlahiyyətli səfir təyin edildi. O, Rusiya-Qacarlar sərhədləri haqqında məsələni həll etməli və imkan daxilində Qacar dövlətini Osmanlı imperiyasına qarşı birgə çıxışa sövq etməli idi. Ümumilikdə A.P.Yermolovun Qacarlar dövlətindəki səfirliyinin yekunlarını Rusiya üçün uğurlu saymaq olar.

Mürəkkəb danışıqlar nəticəsində Gülüstan müqaviləsinin şərtləri yenidən təsdiqləndi ki, bu da Rusiyanın Cənubi Qafqazda əldə etdiyi ərazilərin imperiyanın bir hissəsinə çevrildiyini göstərirdi.

Bununla yanaşı, A.P.Yermolovun səfirliyi Rusiyanı Qacar dövlətinin yeni hərbi təhlükəsi ehtimalından nəinki qurtarmadı, əksinə, ikinci Rusiya-Qacarlar müharibəsinin başlanmasının katalizatoru oldu. Gülüstan müqaviləsinin şərtlərini təsdiq edən Qacarlar dövləti əslində özünün Cənubi Qafqaza iddialarından əl çəkməmişdi. 1818-ci ildə, dərhal Yermolovun səfirliyinin ardından Qacarlar dövləti Böyük Britaniyanın 1814-cü il müqaviləsinin şərtlərinə əməl etməsinə nail olmağa çalışaraq Londona yeni səfirlik göndərdi. Səfirliyin məqsədi Britaniya hökumətinə təzyiq göstərmək və onun dəstəyini əldə etmək idi. Lakin Qacarlar missiyası şahın nəzərdə tutduğu planın (Londonda Qacar səfirliyinin təsis edilməsi, Qacarlar dövlətinə lazımi sayda britaniyalı zabitin göndərilməsi haqqında sazişin əldə olunması və s.) heç bir maddəsini yerinə yetirə bilmədi. Qacar missiyasının iflasa uğramasının səbəblərindən biri onun Britaniya ilə İran körfəzi rayonundakı fikir ayrılıqları ilə bağlı idi; belə ki, bu bölgədə Qacar dövlətinə məxsus olan Bəhreyn adaları Britaniya silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

**“1826-1828-ci illərdə ikinci Rusiya-Qacarlar müharibəsi ərəfəsində və dövründə Böyük Britaniyanın Azərbaycandaki siyasəti”** adlanan **dördüncü fəsil** beş yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə Qacarlar dövləti və Osmanlı imperiyası arasında münaqişə gedişində (1821-1823) Böyük Britaniyanın siyasəti nəzərdən keçirilmişdir. İki dövlətin – Qacarlar dövlətinin və Osmanlı imperiyasının münasibətlərində kəskin problemlərdən biri hər iki tərəf arasında hələ XVI əsrin əvvəllərində şərqi Anadoluda müəyyən olunan sərhədlərin yenidən çəkilməsi ilə bağlı idi. Kürd tayfalarının Qacar ərazisindən Osmanlı ərazisinə və geriyə tez-tez keçmələri ilə əlaqədar bu və ya digər torpaqların mənsubluğu haqqında münaqişələr daim ortaya çıxırdı. 1819-cu ildən etibarən sərhədyanı hakimlər – Azərbaycan hakimi vəliəhd ilə Ərzurumdakı türk ordusunun baş komandanı (sərəsgəri) arasında ixtilaflar və toqquşmalar gücləndi.

Qacarlar dövləti özünün daxili və xarici siyasətində böyük dövlətlər – Rusiya və Böyük Britaniya arasında qüvvələr müvazinətini

saxlamağı əldə rəhbər tuturdu. Rusiya ilə münasibətlər Qacarlar dövləti üçün nəinki Böyük Britaniya, eyni zamanda Osmanlı imperiyası ilə qarşılıqlı münasibətlərinin müəyyənləşdirilməsində həlledici rol oynayırdı. Azərbaycandakı və ümumilikdə Cənubi Qafqazdakı rus istilaları təhlükəsi Qacarlar dövlətini Rusiyadan Cənubi Qafqazda bəzi ərazi güzəştləri əldə etmək məqsədilə onunla ittifaq axtarmağa vadar edirdi. 1820-1822-ci illərdə Qacar hökuməti Rusiya ilə yaxınlaşmaq kursu götürmüşdü. Lakin bu cür siyasət müxtəlif, o cümlədən xarici siyasi amillər səbəbindən nəticəsiz qaldı. Bu səbəbdən Qacarlar dövləti yenidən özünün xarici siyasi kursunu dəyişərək, Osmanlı imperiyası ilə artıq Rusiyaya qarşı müdafiə ittifaqı bağlamağa cəhd etdi. Ərzurum sülh müqaviləsinin bağlanmasından (1823) dərhal sonra İstanbula Qacar səfiri Mirzə Feyzulla göndərildi. O, Rusiyaya qarşı ehtimal edilən müharibədə sultanın kömək göstərməsini xahiş etdi. Osmanlı imperiyası və Qacarlar dövləti arasında ittifaq Rusiya tərəfindən ona qarşı yönəldilmiş ittifaq kimi qəbul edilirdi və təbii ki, Rusiya iki müsəlman dövləti arasında yaxınlaşmağa yol verməmək üçün əlindən gələni edirdi. Böyük Britaniya da sultanla şah arasında mümkün ittifaqa xoş baxmırdı, amma onun bu mövqeyinin səbəbləri tamamilə fərqli idi. Britaniya siyasətinin ana ideyası Rusiya və Osmanlı imperiyaları arasında hərbi əməliyyatlara yol verməmək və onların münasibətlərini nizama salmaq idi. Bununla o, Osmanlı imperiyasının dağılmasına yol verməməyə çalışırdı, çünki bu, Rusiyanın bütün Yaxın Şərqdə nüfuzunun xeyli güclənməsinə gətirib çıxara bilərdi. Nəticədə, Hindistandakı Britaniya ağalığı üçün "rus təhlükəsi" qarşısında qorxu səbəbilə Britaniya hökuməti Osmanlı imperiyası kimi, Qacarlar dövlətinin də "dövlət bütövlüyünün" qorunub saxlanılması siyasəti yürüdürdü. Beləliklə, özünün Şərq siyasəti çərçivəsində Böyük Britaniya adı çəkilən dövlətlər arasında onların zəifləməsinə və labüd dağılmasına gətirib çıxara biləcək münaqişəyə yol verməməyə çalışırdı.

İkinci yarımfəsildə ikinci Rusiya-Qacarlar müharibəsinin (1826-1828) ilkin şərtləri və Böyük Britaniyanın mövqeyi nəzərdən keçirilir. Gülüstan müqaviləsinin bağlanılmasından sonra Rusiya və Qacarlar dövləti arasında hərbi əməliyyatlar dayandırılsa da, iki ölkə arasında münasibətlərdə gərginlik davam edirdi. 1823-cü ilin baharında Qacarlar dövləti Rusiyaya Gülüstan müqaviləsinin şərtlərinə müvafiq olaraq, iki

dövlət arasında sərhəd xəttinin təsbiti üzrə birgə komissiyanın yaradılmasını təklif etdi. 1825-ci ilin martında Rusiya və Qacarlar dövləti arasında sərhəd xəttinin müəyyənləşdirilməsinə dair Tiflis sazişi əldə olundu. 1825-ci il Tiflis müqaviləsi Göyçə gölünün şimalını Rusiyanın, Qafan rayonunu isə Qacarlar dövləti tərkibində təsbit edirdi. Qarabağın cənub-qərbində yerləşən Qafan bölgəsi tərəflər arasında mübahisəli ərazi olsa da, Gülüstan müqaviləsinin şərtlərinə görə Qacarlara keçirdi. Ümumiyyətlə, Tiflis müqaviləsini Qacarlar dövləti tərəfindən diplomatik güzəşt kimi səciyyələndirmək olar. Abbas Mirzə və Fətəli şah müqaviləni ratifikasiya etməkdən boyun qaçıraraq bildirdilər ki, yeni sərhəd Həmzəçimən çayı, Göyçə gölü və sonra Qafan, Muğan düzü və Talış üzərindən keçməlidir. Qacarların Tiflis müqaviləsini təsdiqləməkdən imtina etməsinə cavab olaraq, Yermolov Göyçə gölündən şimal-qərbdə İrəvan xanlığına aid edilən əraziləri işğal etməklə, Qacarlar dövləti ilə hərbi əməliyyatların meydana çıxmasına rəvac verdi.

Yaranmış vəziyyətdə Qacarlar dövləti 1814-cü il müqaviləsinə müvafiq olaraq, həmçinin silah təchizatı və maliyyə yardımına arxalanaraq, Böyük Britaniyaya müqavilənin şərtlərinin yerinə yetirilməsi tələbi ilə müraciət etdi. Rusiya ilə Balkanlarda münasibətlərin sonrakı kəskinləşməsinin arzu olunmazlığını nəzərə alan və onun bu istiqamətdə müstəqil hərəkətlərindən ehtiyatlanan Britaniya diplomatiyası Qacarlar dövləti qarşısında 1814-cü il Tehran müqaviləsinə müvafiq öhdəlikləri yerinə yetirməkdən geri çəkildi. şərq məsələsinin və Rusiya-Qacarlar münasibətlərinin eyni vaxtda kəskinləşməsi son nəticədə Qacarlar dövlətinin tam məğlubiyyəti ilə yekunlaşdı. Britaniya xarici siyasi idarəsinin başçısı olan C.Kanninq yunan məsələsində Rusiya ilə əməkdaşlığa yönəlmiş kursa tam əməl edirdi, halbuki belə bir kurs Britaniya tərəfindən 1814-cü il Tehran müqaviləsinin şərtlərinin yerinə yetirilməməsini tələb edirdi. Bu səbəbdən Britaniya Rusiya-Qacarlar müharibəsi gedişində müşahidəçi mövqeyi tutmağa üstünlük verdi, Qacarlar dövlətinə maliyyə və hərbi yardım göstərilməsindən isə rəsmən imtina etdi.

Bununla bərabər, Britaniya regional siyasətdən tam kənarlaşmaq niyyətində deyildi, çünki onun Yaxın və Orta Şərqdə nüfuzunun zəifləməsi Hindistandakı mülkləri üçün real təhlükə olardı. Hindistanın

təhlükəsizliyinin təminatı onun Şərq siyasətinin mərkəzi mövzusu idi. Şübhəsiz ki, Britaniya kabineti əhəmiyyətli ərazi itkiləri, o cümlədən Qacar sülaləsinin məhvi və Qacarlar dövlətinin parçalanması ilə nəticələnə bilən müharibədə Qacarlar dövlətinin açıq-aşkar müvəffəqiyyətsizliklərindən təşvişə düşmüşdü. Britaniya diplomatiyası hesab edirdi ki, Qacar taxt-tacının saxlanılması – Rusiya-Qacarlar münasibətləri çərçivəsindən kənara çıxan məsələdir, ona görə də Britaniyanın müdaxiləsi tamamilə qanuni sayılmalıdır. Çünki bu məsələ onun birbaşa maraqlarına və Qacarlar dövləti qarşısındakı rəsmi öhdəliklərinə toxunurdu.

XIX əsrin başlanğıcından Britaniya-Qacarlar münasibətləri Rusiya-Qacarlar münasibətləri ilə çulğanmışdı. Nəzərdən keçirilən dövrdə ingilis-rus münasibətləri birmənalı olmayıb çox ziddiyyətli idi: Böyük Britaniya və Rusiya arasında rəqabət və ədavət dövrləri aşkar qarşılıqlı fəaliyyət və hətta əməkdaşlıq mərhələləri ilə əvəzlənirdi. Rusiya-Qacarlar müharibəsində kimin tərəfini tutmağa qərar verən Britaniya hökuməti yunan məsələsində Rusiya ilə əməkdaşlığa üstünlük verirdi. Yəni Böyük Britaniya seçimini öz milli mənafeləri nöqteyi-nəzərindən daha mühüm olan məsələnin xeyrinə etmişdi. Problem onda idi ki, müharibə başlayarkən nə Fətəli şah, nə də Abbas Mirzə bunu anlamamışdılar. Əlbəttə söhbət Britaniyanın Qacar dövləti ilə "uzunmüddətli, strateji" tərəfdaşlığından tam imtinadan deyil, Britaniyanın öz milli mənafeləri üçün ən az risk yolunu seçməli olduğu konkret məqamdan gedirdi.

Üçüncü yarımfəsildə Böyük Britaniyanın sülh danışıqları və Türkmənçay sülh müqaviləsinin bağlanması prosesində rolu araşdırılır. Rusiya ilə ikinci müharibədə məğlubiyyətdən dərhal sonra şah hökuməti öz emissarlarını sülh müqaviləsi bağlamaq üçün göndərmişdi. Lakin real danışıqlar yalnız rus qoşunlarının 1827-ci ilin oktyabrında Təbrizi ələ keçirməsindən, Qacar qoşunlarının darmadağın edilməsindən və bütövlükdə Azərbaycan əyalətini itirmək təhlükəsinin ortaya çıxmasından sonra başladı. İkinci Rusiya-Qacar müharibəsi gedişində (1826-1828) danışıqları üç əsas mərhələyə ayırmaq mümkündür. Sülh müqaviləsi bağlamaq üçün danışıqlar aparmağa ilk cəhd Qara Ziyəddində edilmişdi (1827-ci il, 20-25 iyul). Danışıqların ikinci mərhələsi Dey-Karqanda olmuşdu, orada xüsusi müvəkkillərin,

katiblərin və müşavirlərin iştirakı ilə sülh müqaviləsinin bilavasitə hazırlığı aparılmışdı. Danışıqların üçüncü yekun mərhələsi Türkmənçayda keçirilmişdi (1828-ci il, 7-10 fevral). Orada ikinci Rusiya-Qacarlar müharibəsinə son qoymuş sülh müqaviləsinin imzalanması baş tutdu. Qacar dövlətinin tam məğlubiyyətinin mümkünlüyünü nəzərə alan Britaniya hökuməti Rusiyaya öz vasitəçiliyini təklif etməyə çalışırdı, lakin rədd cavabı almışdı. Buna baxmayaraq, Qacar dövlətində Britaniya missiyası Rusiya-Qacarlar danışıqlarında qeyri-rəsmi də olsa, Abbas Mirzənin şəxsi məsləhətçisi statusunda fəal iştirak etmişdi.

Türkmənçay sülh müqaviləsi 1826-1828-ci illər Rusiya-Qacarlar müharibəsini yekunlaşdıraraq, Rusiyaya onun üçün nəhəng strateji və siyasi əhəmiyyəti olan böyük ərazilər qazandırdı. Eyni zamanda müqavilə Rusiyanın Yaxın Şərqdə mövqelərinin möhkəmlənməsinə gətirib çıxardı. Türkmənçay sülh müqaviləsi, öz növbəsində Böyük Britaniyanın regionda mövqelərini zəiflətmiş oldu. Türkmənçay müqaviləsinin mühüm maddələrindən biri Rusiyaya Xəzər dənizində hərbi donanma saxlamaq haqqında müstəsna hüquq verən VIII maddə idi. Bu surətlə Türkmənçay müqaviləsi nəticəsində Rusiya Qacarlar dövlətində geniş ticarət güzəştləri əldə edirdi, Cənubi Qafqazda özünün tam nəzarətini bərqərar edirdi, Xəzərdə tam ağalığa nail olurdu, eləcə də Mərkəzi Asiyada sonrakı istilalar üçün özünə yol açırdı. Ona görə də ikinci Rusiya-Qacarlar müharibəsinin yekunları Böyük Britaniyanın Hindistandakı mülkləri üçün Rusiya təhlükəsi ilə bağlı narahatçılığını gücləndirdi.

Böyük Britaniyanın əvvəldən müəyyənləşdirilmiş xarici siyasi vəzifələrini həll etməkdə məsul olan britaniyalı diplomatlar Rusiya-Qacarlar münaqişəsinin tənzimlənməsi üçün tərəflər arasında ümumi məqamlar tapmağa çalışırdılar. Britaniyanın istənilən şərtlərdə sülhə nail olmağa yönəlmiş mövqeyi sülh danışıqlarının aparılmasında mühüm rol oynadı. Beləliklə, təsbit etmək olar ki, əsas məqsədi Hindistandakı mülklərin Rusiya ekspansiyasından təhlükəsizliyi təmin etmək olan Britaniyanın vasitəçi missiyası bu vəzifənin öhdəsindən əsasən gələ bilmişdi.

Türkmənçay müqaviləsinin bağlanması Qacarlar dövləti və Böyük Britaniya arasında qarşılıqlı münasibətlərdə də bəzi dəyişiklər

doğurdu. Şah hökuməti Türkmənçay müqaviləsinin şərtləri ilə nəzərdə tutulmuş hərbi təzminatı ödəmək üçün vəsaitə kəskin ehtiyac duyurdu. Britaniya isə Qacarlar dövləti qarşısında müqavilə öhdəliklərindən tezliklə yaxasını qurtarmaq üçün Qacarlar dövlətinə hərbi və maliyyə yardımı göstərilməsi haqqında Tehran müqaviləsinin xüsusi maddələrinin ləğv edilməsi müqabilində təzminatın qismən ödənilməsini təklif etmişdi. 1828-ci ilin martında Tehran müqaviləsinin (1814) 4-cü və 6-cı maddələrinin ləğv edilməsi və Qacarlar dövlətinə Britaniya tərəfindən 200 min tümən verilməsi haqqında Britaniya-Qacarlar sazişi bağlandı. Ehtimal ki, Britaniya Qacarlar hökuməti qarşısında öhdəlikləri yerinə yetirməyə zərurət görmürdü və ələ düşmüş fürsətdən yararlanaraq, adı çəkilən iki maddədən müəyyən bir vəsait ödəməklə yaxasını qurtarmağa çalışırdı. Beləliklə, şahın maliyyə çətinliklərindən istifadə edən Böyük Britaniya 4-cü və 6-cı maddələrin ləğvinə nail oldu. Qacar dövlətinə Britaniyanın maddi yardım etməsi onunla izah edilirdi ki, Britaniya hökuməti təzminat ödənilmədiyi təqdirdə Azərbaycan əyalətinin işğalının Rusiya tərəfindən ilhaqa çevriləcəyəindən ehtiyat edirdi.

Rusiya ilə uğursuz müharibələr Qacarlar dövlətində siyasi vəziyyətə də güclü təsir göstərdi. Hakim dairələr Qacarlar dövlətinin müstəmləkəçi dövlətlərin rəqabət obyektinə çevrilməsi faktı ilə razılaşmalı oldular. Vahid bir xalqın siyasi cəhətdən bölüşdürülməsi isə Qacarlar dövlətində Azərbaycan türklərinin siyasi-iqtisadi və mədəni mövqeyinin zəifləməsinə gətirib çıxardı, baxmayaraq ki, məhz bu xalq adı çəkilən dövlətin təməlində iştirak etmişdi. Etnik vəhdətə və ümumi etnogenezə, dil, mədəniyyət və ümumi tarixi keçmişə malik Azərbaycan türkləri Rusiya-Qacarlar müharibələrindən sonra (1804-1813; 1826-1828) Qafqaz və İran azərbaycanlıları olaraq ayrılmağa başladılar.

Göründüyü kimi, Trabzon-Təbriz ticarət magistralı üzərində nəzarəti itirməkdən, habelə Rusiyanın onun Hindistan müstəmləkələrinə yaxınlaşmasından qorxuya düşən Britaniya siyasəti onu danışıqlar prosesində bu qədər yaxından iştirak etməyə vadar etdi. Hərbi əməliyyatların davam etdiyi bütün müddət ərzində Böyük Britaniya Qacarlar dövlətini hər vəchlə Rusiyanın təqdim etdiyi ən ağır ərazi güzəştlərini tanımağa sürükləyirdi. Özü isə Tehran müqaviləsi (1814) ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən imtina

edirdi. Bu yarımfəsildə gətirilmiş faktların ətraflı tədqiqi belə fikri təsdiqləyir ki, İran və Rusiya arasında Azərbaycan türklərinin bu faciəli parçalanmasında Böyük Britaniyanın da siyasəti müəyyən rol oynamışdı.

Dördüncü yarımfəsildə 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi gedişində Qacarlar dövlətinin mövqeyi nəzərdən keçirilir. Qacarlar dövləti ilə bağlanmış sülh, Cənubi Qafqazda siyasi və strateji vəziyyəti Rusiyanın xeyrinə dəyişməklə, rus hökumətinə Osmanlı dövləti ilə hərbi əməliyyatlara başlamaq fürsətini də verdi. Yeni Rusiya-Osmanlı müharibəsinin başlanması ilə Rusiya hökuməti üçün Türkmənçay müqaviləsinin şərtlərinə dəqiq əməl olunması və türklərlə müharibədə şahın birtərəfliliyini təmin etmək və Qacarlar dövləti ilə dinc münasibətləri möhkəmləndirmək çox vacib idi. Bu məsələlərin həlli üçün 1828-ci ilin aprelin 25-də A.S.Qriboyedov Qacarlar dövlətində səlahiyyətli nazir təyin olundu. Qriboyedova müqavilənin şərtlərinin qeyd-şərtsiz yerinə yetirilməsinə, ilk növbədə təzminatın tam ödənilməsinə nail olmaq işi tapşırılmışdı. Lakin 1829-cu ildə Qriboyedovun Tehranda öldürülməsi və Rusiya missiyasının darmadağın edilməsi nəticəsində Rusiya hökuməti üçün beynəlxalq şərait xeyli ağırlaşdı. Əvvəla, Osmanlı imperiyası ilə müharibə davam edirdi. Rusiya ordusu bu müharibədə hələlik vacib qələbələr qazana bilməmişdi. Balkanlarda və Qafqaz cəbhəsində həlledici hərbi kampaniya hələ irəlidə idi. İkincisi, yaranmış beynəlxalq vəziyyətdə güclü antirus koalisiyasının yaradılması tamamilə real görünürdü. Avstriya güclü şəkildə silahlanırdı və onun Dunay knyazlıqlarına hücumunu gözləmək olardı. Bundan əlavə, Rusiyanın özündə orduya böyük sayda əsgər cəlb edilməsi, aparılan müsadirələr və uzun-uzadı davam edən hərbi əməliyyatlar xalq kütlələrinin narazılığını artırmışdı. Osmanlı imperiyası ilə müharibə vəziyyətində olan Rusiya üçün Qacarlar dövləti ilə sərhədlərin təhlükəsizliyi xüsusilə önəmli idi. Belə bir şəraitdə Rusiya hökuməti iki cəbhədə hərbi əməliyyatlar aparmaq istəmirdi. Qacarlar dövləti ilə yeni müharibə Rusiya-Britaniya münasibətlərini də xeyli mürəkkəbləşdirə bilərdi.

Osmanlı imperiyası ilə müharibəyə başı qarışmış Rusiya hökuməti Tehranda rus səfirinin qətli ilə bağlı hadisələri təsadüf kimi qələmə verməyi uyğun görərək, Qacarlar dövlətindən sadəcə

imperatorun adına şahın üzrxahlıq məktubu yazmasını, müqəssirlərin cəzalandırılmasını və "günahı yüngülləşdirmək" üçün Abbas Mirzənin oğullarından birinin göndərilməsini istədi. Rusiya imperatoru I Nikolayın Qacar şahının üzrxahlığını rəsmən qəbul etməsindən sonra Qacarlar dövləti və Rusiya arasında fikir ayrılıqları aradan qaldırıldı ki, bu da tərəflər arasında gərginliyin zəifləməsinə gətirib çıxardı. Xosrov Mirzənin "üzrxahlıq" missiyası öz məqsədinə nail oldu. Şah hökumətinin baş vermiş faciədə əli olmaması haqqında formal versiya çar I Nikolay tərəfindən qəbul olundu.

Xosrov Mirzənin öhdəsindən müvəffəqiyyətlə gəldiyi missiyasının başlıca hədəfi ilə yanaşı, siyasi məqamları da var idi. Belə ki, missiya təzminat ödənişi məsələsində Rusiyanın mövqeyinin bir qədər yumşaldılmasına nail olmalı idi. Danışıqlar gedişində Xosrov Mirzə Rusiyanın Qacarlar dövlətinə bir kurur (iki milyon rus gümüş rublu) güzəştə getməsinə nail oldu, qalan kururun ödənilməsi isə 5 il müddətinə uzadıldı. Nəticə etibarilə Rusiya və Qacarlar dövləti arasında 1829-cu ilin fevralında Tehranda rus missiyasının darmadağın edilməsi və missiyanın başçısı, Rusiyanın Qacarlar dövlətində fövqəladə səfiri və səlahiyyətli naziri A.S.Qriboyedovun öldürülməsi ilə ortaya çıxmış kəskin siyasi münaqişə bir neçə aydan sonra ortadan qaldırıldı.

Bu arada, 1829-cu ilin avqustunda Osmanlı qoşunlarının Balkanlarda və Qafqazda sarsıdıcı məğlubiyyətlərindən sonra Ədirnədə sülh danışıqları başladı. Britaniya diplomatiyası vasitəçilik missiyasını öz üzərinə götürdü. Buna həmçinin danışıqların başlanğıc mərhələsində Rusiya nümayəndə heyətinin başçısı olan feldmarşal Dibits də etiraz etmədi. Ədirnə danışıqlarında Osmanlı imperiyasının ilk növbədə Qafqaz cəbhəsində əraziləri güzəştə getmək istəməyəcəyi əvvəldən bəlli idi. Lakin Osmanlı imperiyası yekunda Kuban çayının mənsəbindən müqəddəs Nikolay gəmi körpüsünə kimi Qafqazın Qara dəniz sahilinin Rusiya tərkibinə keçməsinə razılıq verdi və qəti olaraq Şimali Qafqaz vilayətlərinə iddiadan əl çəkdi. 1829-cu ilin sentyabrın 2-də Osmanlı sultanlarının qədim sarayında, Osmanlı imperiyasının özünün yaranması ilə əlaqəli olan şəhərdə – Ədirnədə tərəflər sülh müqaviləsini imzaladılar.

Ədirnə müqaviləsi Rusiyanın Şərq siyasətindəki uğurunun kulminasiyası oldu. Ədirnə müqaviləsinin dördüncü maddəsi hazırkı

tədqiqat üçün xüsusi maraq doğurur. Bu maddəyə görə, Osmanlı imperiyası Rusiyanın Cənubi Qafqazdakı mülklərini tanıyırdı. Yeni Rusiya-Türkiyə sərhədi Quriyadan Aleksandropola kimi uzanaraq, Axalsıxın 15 km. cənubundan və Axalkələkin 30 km cənubundan keçirdi. Axalsıx paşalığının qalan hissəsi, habelə Qars, Bəyazid və Ərzurum paşalıqları Osmanlı imperiyasına qaytarılırdı.

Ədirnə müqaviləsinin bağlanması ilə XIX əsrin 20-ci illərinin şərq böhranı başa çatdı. Rusiya Yaxın Şərqdə ən nüfuzlu Avropa dövləti oldu. Rusiyanın bu müqavilə ilə təsbit edilmiş Yaxın Şərqdəki müvəffəqiyyətləri ilk növbədə rus-ingilis rəqabətini kəskinləşdirməklə, Avropa hökumətlərini təşvişə saldı.

Beləliklə, 1828-1829-cu illər müharibəsi Rusiya və Osmanlı imperiyaları arasında çoxəsrlik mübarizədə yeni mərhələ oldu. XIX əsrin birinci yarısında Rusiya-Osmanlı münasibətləri həm Avropada beynəlxalq münasibətlərin ümumi vəziyyəti, həm də Yaxın Şərq regionunda Rusiyanın xarici siyasəti qarşısında duran konkret vəzifələrlə şərtlənmişdi. Türkmənçay və Ədirnə sülh müqavilələri isə Rusiyanın Cənubi Qafqazdakı istilalarını hüquqi cəhətdən təsbit etdi.

XIX əsrin başlanğıcında iri Avropa dövlətləri arasında Yaxın Şərqdə ağalıq uğrunda gah açıq, gah da gizli diplomatik mübarizə gedirdi. Bu, bir tərəfdən, Osmanlı imperiyasının iqtisadi və siyasi zəifləməsi ilə, digər tərəfdən Avropa dövlətlərinin ekspansiyasının güclənməsi ilə şərtlənmişdi. Bu dövrdə rus diplomatiyasının şərq məsələsinə dair iki konsepsiyası var idi: bir tərəfdən, Rusiya Osmanlı imperiyasının bölüşdürülməsində fəal surətdə iştirak etməyə hazırlaşırdı. Digər tərəfdən isə o, Osmanlı imperiyasının parçalanmasını istəmirdi. Ona görə də adı çəkilən müharibənin nəticələrinə yekun vurarkən, nəzərə almaq lazımdır ki, Rusiya nəinki öz siyasi və ticarət maraqlarını genişləndirməyə müvəffəq oldu, eyni zamanda Osmanlı imperiyasını elə bir həddə zəiflətdi ki, sonuncusu öz mövcudluğunu qorusa da, Rusiyanın qəsbkarlıq planlarının qarşısını artıq ala bilmədi. Osmanlı imperiyasının dağılması isə Rusiyanı bütün Avropa ölkələri ilə savaşa gətirib çıxara bilərdi. Rusiyanın xarici siyasi uğurları obyektiv olaraq aparıcı Qərb dövlətləri ilə münaqişə üçün zəmin hazırlayırdı. Rusiyanın hədsiz dərəcədə güclənməsi Avropa dövlətlərin də böyük narahatçılıq yaradırdı. Lakin Rusiyanın müvəffəqiyyətləri o qədər

möhkəm təmələ malik idi ki, Avropa dövlətləri Rusiya ilə birbaşa hərbi münaqişəyə girməyə cəsarət etmirdilər. Rusiyanın Qafqazda güclənməsi şərq ərazilərində öz nüfuz dairəsini gücləndirməyə can atan Böyük Britaniyanın xarici siyasətinə də zidd idi. Türkmənçay və Ədirnə sülh müqavilələrinin başlıca yekunu XIX əsrin 20-ci illərində şərq böhranı zamanı Avropa dövlətlərinin Rusiyaya qarşı hərbi-diplomatik mübarizədə məğlubiyyətə uğramaları idi.

Beşinci yarımfəsildə Qacarlar dövləti və Osmanlı imperiyası ərazisindən erməni əhalinin Şimali Azərbaycana köçürülməsi şəraitində (1828-1830) Böyük Britaniyanın siyasəti nəzərdən keçirilir. Azərbaycanın şimal torpaqlarının və bütünlükdə Cənubi Qafqazın istilasından sonra Rusiya hökuməti yenicə istila etdiyi torpaqlara ermənilərin köçürülməsini hər vəchlə təşviq etməyə başladı. Rusiya imperiyası tərəfindən yürüdülən bu siyasətin mahiyyəti xristian azlığa (gürcülərə və ermənilərə) dayaqlanaraq güvənsiz element kimi gördükləri çoxsaylı yerli türk əhalinin sıxışdırıb çıxarılmasına nail olmaq idi. Bununla da faktiki olaraq bütöv bir xalqın tarixi ilə manipulyasiya etmək siyasətinin əsası qoyulurdu. Rusiya hökuməti bu siyasətin həyata keçirilməsində ermənilərə mühüm rol ayırmışdı. İlk dəfə 1828-ci il Türkmənçay müqaviləsinin XV maddəsində hüquqi cəhətdən təsbit edilmiş ermənilərin Şimali Azərbaycana kütləvi şəkildə köçürülməsi bir yüzillik davam etmiş prosesin başlanğıcını qoydu. 1828-ci ilin martın 21-də I Nikolay mərkəzi İrəvan olmaqla, “Erməni vilayətinin” yaradılması haqqında xüsusi fərman verdi. Bu vilayətə rus idarəçi başçılıq edirdi.

Lazarev özünün köçürmə fəaliyyətinin yekunları haqqında daxili işlər naziri Zakrevskiyə təqdim etdiyi hesabatda Urmiya, Xoy, Sərab, Təbriz, Maku, Marağa və Qəzvin xanlıqlarından 8249 erməni ailəsinin köçürüldüyünü göstərir. Britaniya arxiv materiallarının məlumatlarına əsasən, hesabatda Urmiya, Xoy, Sərab, Təbriz, Maku, Marağa və Qəzvin xanlıqlarından əlavə, ermənilərin həm də Qaradağ xanlığının üç mahalından köçürülməsi həyata keçirilmişdi. Bu fakt Lazarevin hesabatında qeyd edilmədiyi üçün indiyədək Azərbaycan tarixşünaslığında naməlum qalmışdır. Məsələn, köçürülmə prosesinə nəzarət edən britaniyalı müşahidəçi leytenant Şinin hesabatına əsasən, 1828-ci ilin mayında Keyvian mahalının səkkiz kəndinin, Çələbian

mahalının doqquz kəndinin, Gərmədüz mahalının beş kəndinin demək olar ki, bütün erməni əhalisi köçürülmüşdü.

1829-cu ildə Rusiya üçün Osmanlı imperiyası ilə müharibənin uğurla başa çatması Rusiya hökuməti qarşısında həmçinin Türkiyə ermənilərinin də Cənubi Qafqaza, əsasən də Şimali Azərbaycana köçürülməsi üçün geniş imkanlar açdı. Məsələn, 1829-cu il Ədirnə müqaviləsinin XIII maddəsinə əsasən, Osmanlı imperiyasının ələ keçirilmiş ərazilərində yaşayan ermənilərə 18 ay ərzində istila edilmiş Qafqaz torpaqlarına köçmək hüququ verilmişdi.

Ümumilikdə Ərzurum, Muş, Bəyazid, Qars və Axalsıx paşalıqlarından təxminən 90.000 adam köçürülmüşdü. Beləliklə, Osmanlı imperiyasından Cənubi Qafqaza köçürülən ermənilər başlıca olaraq Axalsıxda və "Erməni vilayəti"ndə yerləşdirilmişdi. Lakin bu, sadəcə rəsmi rəqəmlərdir. Tədqiqatçıların hesablamalarına görə, əslində Osmanlı imperiyasından köçürülən ermənilərin sayı 100 min nəfəri keçirdi.

Beləliklə, 1828-1829-cu illərdə Şimali Azərbaycanın etnik tərkibi əhəmiyyətli dərəcədə dəyişdi. Britaniya qaynaqlarına əsasən, Rusiya hökuməti yerli əhalinin öz evlərinə qayıtmalarına hər vəchlə maneə törədirdi. Yenicə işğal edilmiş iki xanlığın (İrəvan və Naxçıvan) ərazisində əvvəlcədən yarımuxtar etnik erməni əyaləti kimi düşünülmüş "Erməni vilayəti" yaradıldı. Bunun üçün yerli azərbaycanlı türk əhali sıxışdırılmağa başlandı. Rusiya hökuməti erməniləri Azərbaycan türklərinin məskun olduğu münbit torpaqlarda yerləşdirərək, onlara xüsusi imtiyazlar verirdi. Qısa müddət ərzində bu imtiyazların hesabına varlanan köçkünlər regionun azərbaycanlı türk əhalisini fəal bir şəkildə sıxışdırmağa başladılar. Köçürülmə demoqrafik vəziyyətə də mənfi təsir göstərdi. Regionda Azərbaycan türklərinin sayı tədricən azaldı və onlar öz tarixi torpaqlarını tərk etmək məcburiyyətində qaldılar.

"Erməni vilayəti"ndə ermənilərin sayının süni şəkildə artması və eyni zamanda Rusiya hakim dairələri tərəfindən yürüdülən siyasətlə əlaqədar Şimali Azərbaycandan yerli azərbaycanlıların Qacarlar dövlətinə və Osmanlı imperiyasına sıxışdırılması nəticəsində regionun etnik tərkibi ciddi dəyişikliklərə məruz qaldı. Osmanlı imperiyasından ermənilərin köçürülməsi isə sonrakı dövrdə də davam etdi. Dəhşətli qanunsuzluqlara qarşı azərbaycanlı türk əhalinin etirazlarına

baxmayaraq, Qafqazdakı Rusiya idarəçiliyi, demək olar ki, dəyişmədi. XIX əsrin ikinci yarısında Rusiyanın Osmanlı imperiyası ilə növbəti müharibələrindən (1853-1856, 1877-1878) sonra yeni-yeni qaçqın dalğaları meydana gəldi.

Beləliklə, yuxarıda qeyd edilmiş hadisələr Cənubi Qafqazın tarixində mühüm mərhələni təşkil etməklə, regionun və ilk əvvəl Şimali Azərbaycanın etnosiyasi xəritəsində ciddi dəyişiklikləri şərtləndirdi.

Dissertasiya işinin **nəticə** hissəsində elmi tədqiqata yekun vurulmuş, XVIII – XIX əsrin əvvəllərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yerinin və rolunun ümumiləşdirici təhlili aparılmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (*həmmüəllif*). Bakı: Çaşıoğlu, 2009, - 576 s.
2. Исследования истории Гарабахского и Иреванского ханств в англоязычной историографии // “Карабах вчера, сегодня и завтра” Материалы научно-практических конференций, часть 2. Баку: 2009, с.127-132.
3. Вопрос о захвате Азербайджанских земель Османской империей в первой половине XVIII в. (на основе англоязычной историографии) // AMEA A.Bakıxanov adına Tarix İnstitutunun əsərləri, c. XXVII. Bakı: 2009, s.88-100.
4. Современная историография государства Надир шаха Афшара // XXV Международная конференция Источниковедение и историография стран Азии и Африки (22-24 апреля 2009) Востоковедение и Африканистика в диалоге цивилизаций. Тезисы Докладов. Санкт-Петербург: 2009, с.82-83.
5. О последнем Иреванском хане – Хусейн Гули хане Гаджаре. (на основе сведений англоязычных источников и историографии) // Известия Национальной Академии Наук Азербайджана, Серия истории, философии и права, №12. Баку: 2009, с.61-72.
6. Карабахское и Эриванское ханства в англоязычной историографии // Ирс, Наследие, Международный азербайджанский журнал, №6 (42), 2009, с.44-46.
7. О некоторых новых подходах при изучении истории государства Надир шаха Афшара // Шаргшунаслар Анжумани, №1, Ташкентский государственный институт Востоковедения. Ташкент: 2009, с.126-133.
8. О попытках создания военно-морского флота на Каспийском море Надир Шах Афшаром // Россия и Кавказ: История и современность, Международная научная конференция 22 октября 2009 г. Махачкала: 2010, с.193-201.

9. Вопросы истории Азербайджана XVIII в. (на основе сведений англоязычных источников и историографии). Москва: 2010. -244 с.
10. Some approaches to the study of history of Azerbaijan in the light of modern trends of historiography // Euroqual, International Perspectives on Qualitative Research in the Social Sciences, One Great George Street, London, 4-6 May 2010, p.99.
11. Aqa Muhammad Shah Qajar campaigns' to Transcaucasia in the end of 18th century // 3rd World Congress on Middle Eastern Studies 19-24 July 2010, Barcelona, Spain // http://wocmes.iemed.org/fr/new-panel-9083-caucasus-analysed
12. Сочинение Мухаммад-Рафи Ансари «Дастур ал-Мулук» и степень его изученности в мировой историографии // "Актуальные проблемы литератур народов зарубежного востока и литературного источниковедения" Материалы международной научной конференции. 27-28 октябрь, 2010 г. Ташкент: Ташкентский Государственный Институт Востоковедения, с. 80-83.
13. Взаимоотношения государства Надир шаха Афшара с Российской империей // «От Античности к Возрождению». Материалы IX Дзагуровских чтений. Сборник трудов Кафедры истории стран Европы и Америки, выпуск IX. Махачкала: 2010, с. 100-103.
14. British geopolitical interests in South Caucasus at the end of the 18th century to the first quarter of the 19th century // 7th European Conference of Iranian Studies (ECIS 7), September 7-10, 2011, Jagiellonian University, Krakow, Poland, p. 67.
15. Геополитические интересы Великобритании в Азербайджане в ходе русско-иранских войн (1804-1813 и 1826-1828 гг.) // Труды Института истории НАН Азербайджана, 2011, том 38, с.129-138.
16. Современная англоязычная историография по истории Азербайджана и Ирана XVIII- начала XIX вв. // XXVI Международная конференция Источниковедение и историография стран Азии и Африки (20-22 апреля 2011) «Модернизация и традиции». Тезисы Докладов. Санкт-

Петербург: 2011, с.53-54.
17. The Main Stages of the Russian Expansion on Azerbaijan at the XVIII and Beginning of the XIX Centuries // Mediterranean Journal of Social Sciences, Vol. 3, No. 8, April 2012. Rome, Italy, p.11-15.
18. История Азербайджана в архивных документах Британской Библиотеки (конец XIX – начала XX веков). Том I. Баку: 2012, с.764. (*Tərtibçisi və giriş mətninin müəllifi olduğu sənəd toplusu*).
19. Взаимоотношения государства Надир шаха Афшара с соседними государствами. Единение народов Дагестана в борьбе против иноземных завоевателей // Материалы международной научной конференции, посвященной 270-летию разгрома Надир-шаха в Дагестане. Махачкала: 2013, с.114-121.
20. The role of British military experts in the formation of the Qajar troops in the first quarter of the XIX century // Conference "Colonial Heritage in the Middle East and the Maghreb: the Shaping of Hopes and Perspectives" Mansfield College, Oxford: 24-25 June 2013, p.18.
21. Политика Британской империи в Азербайджане во время правления Надир Шаха Афшара // Вестник Дагестанского Государственного Университета. Серия: история, педагогика, психология, 4 выпуск, 2013, с.33-38.
22. Османские архивные документы об истории государства Надир шаха Афшара // XXVII Международная конференция Источниковедение и историография стран Азии и Африки (24-26 апреля 2013) «Локальное Наследие и глобальная перспектива» «Традиционализм» и «Революционизм» на Востоке. Тезисы Докладов. Санкт-Петербург: 2013, с.46-47.
23. Британские дипломатические миссии в Каджарском государстве в ходе русско-иранской войны 1804-1813 г. // Материалы Международной научно – практической конференции «Интеграция народов Кавказа в состав России (К 200-летию Гюлистанского договора 1813 г.)», Махачкала, 15 мая 2013 г., с.121-127.

24. British diplomacy during the Russia-İranian wars (1804-1813 and 1826-1828) // The 32nd German Oriental Studies Conference (“Deutscher Orientalistentag”) 23 to 27 September 2013 in Münster. // http://www.dot2013.de/en/programm/abstracts/abstracts-iranistik/#Gozalova
25. Британские дипломатические миссии и посольства в Каджарском государстве в ходе русско-иранских войн (1804-183 1826-1828гг) // Материалы Международной научной конференции «Гюлистанский мирный договор 1813 г.: основные итоги и последствия для судеб народов Кавказа», посвященной 200-летию со дня подписания договора, 24 сентября 2013 г. Махачкала: с.78-84.
26. The role of British military experts in the formation of the Qajar troops in the first quarter of the XIX century // Maghreb Review, May 2014, Volume 39, №4, p.389-409.
27. Британская политика в Каджарском государстве в ходе русско-иранских войн (1804-1813 и 1826-1828 гг.) // Вестник Дагестанского государственного университета, 2014. № 4, с. 174-180.
28. Современная историография государства Надир шаха Афшара // Transcaucasia, выпуск №2, 2014. Москва: с.228-231.
29. Политика Великобритании и роль Британских военных специалистов в формировании каджарских войск (в первой четверти XIX века) // Вестник Бакинского Университета. Серия Гуманитарных наук. №2. Баку: 2014, с.75-82.
30. Роль английских военных специалистов в модернизации Каджарской армии в первой четверти XIX века // Известия Национальной Академии Наук Азербайджана, Серия истории, философии и права, 2014, №1. ст.23-37.
31. Rusya imparatorluğunun dış politikası ve XVIII. yüzyılın sonu – XIX. yüzyılın başlarında Irevan hanlığı’nda etnodemografik manzaranın değişmesi // Yeni Türkiye, Sayı 63, eylül-aralık 2014, s.2621-2626.
32. Səfəvilər dövlətinın tənəzzülü və Nadır Şah Əfşar dövlətının

yaranması // Qafqaz Tarixinin Aktual Məsələləri Beynəlxalq konfrans. 15-16 oktyabr, 2015, Gəncə, s.217-227.
33. Англо-французское соперничество в Иране в ходе русско-иранской войны (1804-1813) // XXVIII Международная конференция. Источниковедение и историография стран Азии и Африки (22-24 апреля 2015). Азия и Африка в меняющемся мире. Тезисы Докладов. Санкт-Петербург: 2015, s.85-86.
34. The Diplomatic Relations of Qajar Iran with Ottoman Empire 1800-1828 // International Congress on Ottoman Studies (ICOS), Sakarya University, 14-17 October, 2015, s.113.
35. «Англо-французское соперничество в каджарском Иране в начале XIX в.». Власть и насилие в незападных обществах: проблемы теоретического осмысления и опыт практического изучения, Сборник статей. с.275-287. Москва: ГБПОУ, 2016.
36. "Relations between Qajar Iran and Ottoman Turkey in the first quarter of 19th century". Osmanlıda Siyaset ve Diplomasi. İstanbul: Mahya Yayıncılık, 2016, s.75-90.
37. Посольство генерала А.П. Ермолова в Каджарском Иране // Вопросы Истории, №5, 2016. Москва: с.76-89.
38. Военно-политические отношения между Каджарским Ираном и Османской Турцией в первой четверти XIX века // Azərbaycan Milli Elmlər Akademiyasi. Xəbərlər. İctimai Elmlər Seriyası, № 1, 2016, s.106-127.
39. Сведения о посольствах Азербайджанского правителя Надир Шаха Афшара в российских и турецких архивах. // AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutu, Elmi Əsərləri, cild № 2(3), 2016, с.67-79.
40. Армянская и Албанская церкви на Южном Кавказе в исторической ретроспективе // Strateji Təhlil, Say 3-4 (17-18), 2016, s.87-106. (*həmmüəllif*)
41. Военный конфликт между Каджарским Ираном и Османской Турцией в 1821-1823 гг. // Strateji Təhlil, Say 1-2 (15-16), 2016, с.271-296.
42. Сведения о посольствах Азербайджанского правителя Надир Шаха Афшара в российских и турецких архивах // Традиции

российского кавказоведения. Выпуск 1. Институт восточных рукописей РАН. Санкт-Петербург: 2016, с.103-121.
43. О предпосылках второй русско-иранской войны (1826-1828) // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi 2017, №1, с.173-180.
44. Переселение армян из Османской Турции в северный Азербайджан (1829) // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2016, №2, с. 220-225.
45. Nadir şah Əfşarın hərbi dəniz donanmasi yaratmaq cəhdləri və Britaniya hərbi mütəxəssislərinin bu işdə iştirakı // Hərbi Bilik, №2 (146), 2017, s.101-111.
46. Политика Великобритании в каджарском Иране в ходе Второй русско-иранской войны // Материалы XXIX Международного конгресса по источниковедению и историографии стран Азии и Африки «Азия и Африка: наследие и современность», 21-23 июня 2017 г. Санкт-Петербург: Том 1, с.134-136.
47. Переселение армян на Южный Кавказ (1826-1830 гг.) // Сборник статей I Международной научно-практической конференции «Османовские чтения» (г. Махачкала, 10 октября 2016 г.). – Махачкала: Издательство ДГУ, 2017, с.29-31.
48. Место Азербайджана в восточной политике Великобритании в первой трети XIX века. Баку: Elm və Təhsil, 2017. – 360 s.
49. Кавказский фронт русско-турецкой войны 1828–1829 гг. // The World of the Orient, 2017, № 3, с. 35-45.
50. Заключение Туркманчайского мирного договора и политика Великобритании // Вопросы истории, 2017, № 9, с. 134-148.
51. Armenians' Resettlement from Qajar Iran and the Ottoman Empire to the Southern Caucasus (1828–1830). 33. Deutscher Orientalistentag "Asia, Africa and Europe", 18-22 September 2017 in Jena (Germany). http://www.dot2017.de/index.php?eID=tx_nawsecuredl&u=0&g=0&t=901506401680&hash=9edec42ad21fb89c0b14635b8b4c2fb62c16d421&file=fileadmin/congress/media/dot2017/abstracts/Kaukasiologie.pdf

52. Каджарское государство в начале XIX в.: государственное устройство, система правления и политические границы // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə №3(59), 2017, c.205-213.
53. Политика Великобритании накануне и в ходе второй русско-иранской войны (1826-1828) // Strateji Tehlil Jurnalı, Say 3-4 (21-22), 2017, c.77-106.
54. Сочинение Мухаммад Рафи Ансари «Дастур аль-Мулук» и степень его изученности в мировой историографии // Milli Azərbaycan Tarixi Muzeyi, 2017. Bakı: Elm, c.171-176.
55. 1828-1829 Osmanlı-Rus savaşı sırasında Anadolu paşalıgları'nın durumu (Rus Kaynaklarına Dayalı) // I. Uluslararası Bahtiyar Vahapzade Azerbaycan tarihi – kültürü ve edebiyatı sempozyumu 20-23 Mart 2018, Antalya, s.1.
56. Great Britain's role in conclusion of the Erzurum peace treaty of 1823 // XVIII. Türk Tarih Kongresi, Bildiri Özeti, 1-5 Ekim, 2018. XVIIIth Turkish congress of history October 1-5, 2018, s.117.
57. XVIII əsrin 30-40-cı illərində Nadir şah Əfşarın Bağdad yürüşləri. Bakı: Elm və təhsil, 2018, - 152 s. (*həmmüəllif*)
58. Sülh danışıqlarının gedişində və Türkmənçay müqaviləsinin bağlanmasında Böyük Britaniyanın rolu // AMEA A.A.Bakixanov adına Tarix İnstitutunun Elmi Əsərləri, cild № 73, 2018, s.102-113.
59. Тифлисский договор 1825 г. или предпосылки второй русско-иранской войны (1826-1828) // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai Elmlər Seriyası, № 3, 2018, c.31-44.
60. Причины и предпосылки второй русско-иранской войны // Yosh Sharqshunoslarning Akademik Ubaydulla XVI Respublika İlmiy-Amaliy konferensiyası Materialları. Toshkent:2019, s.75-76.
61. «Тегеранский кризис» и позиция Каджарского Ирана в ходе русско-турецкой войны 1828-1829 гг. // Материалы XXX Международного конгресса по источниковедению и историографии стран Азии и Африки: к 150-летию

академика В.В.Бартольда (1869-1930). 19–21 июня 2019 г. Санкт-Петербург: Том 1, с.189-198.
62. Политические отношения России и Каджарского Ирана накануне второй русско-иранской войны (1825-1826) // Научный Диалог. 2019. №9, Екатеринбург: с. 262-275.
63. Англо-Российское противостояние и планы Надир Шаха Афшара по созданию военно-морского флота на Каспийском море // Центральная Азия на перекрестке европейских и азиатских политических интересов: XVIII-XIX вв. // Сборник научных трудов международного семинара. Алма-Ата, 19-23 августа 2019 г. / науч. ред. Д.В.Васильев. – Москва: ОнтоПринт, 2019, с. 300–314.
64. Аббас-Мирза и реорганизация иранской армии в первой четверти XIX в. // ВОСТОК (ORIENS), №6. Москва: 2019, с. 112-122.
65. Политика Великобритании в ходе второй русско-иранской войны (1826-1828) // Материалы V Международного конгресса кавказоведов. Тбилиси: 2019, с.137-138.
66. The government of Qajar state at the beginning of the XIX century // Prossidings of International Conference East and West: Linguistic, Cultural, Historical Interactions. December 12-15, 2019. Tbilisi. The Conference is dedicated to the 90th anniversary of Academician Thomas V. Gamkrelidze, p.53.
67. Влияние англо-иранских отношений на заключение Туркманчайского договора // Материалы IV Форума гуманитарных наук «Великая степь», Нур-Султан – 2019, I. «Ұлы Дала». IV-ші халықаралық гуманитарлық ғылымдар форумының материалдары (Бірінші бөлім) – Нұр-Сұлтан: «Ғылым» баспасы, 2019. – 802 бет, с.102-109.
68. The Diplomatic mission of general Ermolov in Qajar Iran// Proceedings of the Eighth European conference of Iranian Studies, Volume II, Saint Petersburg. The State Hermitage Publishers 2019, p.95-110.
69. Посольство Надир шаха Афшара к Русскому двору (1739-1742)// Караван, № 82, Август 2020, с.16-38.

70. The Second Russo-Iranian War (1826-1828) and the Position of the Great Britain// The proceedings the Fourth and Fifth International conference on Georgia-Iran political, economic and cultural relations. Tbilisi, 2021, p.266-274.

Dissertasiyanın müdafiəsi "11" fevral 2022-ci il tarixində saat 10-00 Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "7" yanvar 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.01.2022

Kağızın formatı: A5

Həcm: 75141

Tiraj: 30